QARABAĞ AZƏRBAYCANDIR!




## Birinci vitse-prezident Mehriban Əliyeva ölkəmizin İrandakı səfirliyinə hücumla bağlı paylaşım edib

2

## “Azərbaycanın yaşıl enerji potensialı yüksəkdir



2

Prezident İlham Əliyev "Brookfield Asset Management" şirkətinin baş icraçı direktorunu qəbul edib



SƏS

№ 016 (6699) 28 yanvar 2023-cü il. Qiymәti 60 qәpik

# İran kəşfiyyatı bu terroru da etdi!

*Artıq uzun müddətdir ki, Azərbaycan dövlətinə qarşı hədsiz yanlışlıqlar nümayiş etdirən Tehran rejimi bu dəfə tamamilə qırmızı xətti keçdi və səfirliyimizə edilən xain, rüsvayçı silahlı hücum, eləcə də, bu hücumun ağır nəticəsi də belə deməyə əsas verir ki, artıq həmin hücum bilavasitə ölkəmizə qarşı əvvəlcədən hazırlanmış terror hadisəsidir. Terror bütün dünyada lənətlənir və bu baxımdan, sözügedən qanlı olaya görə bilavasitə özünü "İslam Respublikası" adlandıran, habelə din pərdəsi altında düşmənlərimizlə əlbir olan Tehran rejimi cavab, eləcə də hesabat verməlidir!*



## YAP-ın Mərkəzi Aparatı Azərbaycanın İrandakı səfirliyinə silahlı hücumla əlaqədar bəyanat yayıb



2

## Yol qəzaları: Piyada vurulmalarının qarşısını necə almaq olar?



16

## Rifah və firavanlığa - SON BEŞ İLDƏ DÖRDÜNCÜ SOSİAL İSLAHATLAR PAKETİ



11

## Gender balansının təmin olunması istiqamətində uğurlu nəricələr var



8

## Bəri bax...



*Biz görəsən mahnılarımızın, musiqilərimizin başına nə üçün bu oyunları açırıq? Nədir onların günahı?*

# Prezident İlham Əliyev Azərbaycanın İrandakı səfirliyinə hücumla bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin Tehrandakı səfirliyinə xain hücumla əlaqədar tviterdə paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Bu gün Tehrandakı səfirliyimizə qarşı törədilmiş terror aktını şiddətlə qınayıram. Səfirliyin və səfirlik əməkdaşlarının mühafizəsini təmin edərkən həlak olan baş leytenant Əsgərov Orxan Rizvan oğlunun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

Bu terror aktının tezliklə araşdırılacağını və terrorçuların cəzalandırılacağını tələb edirik. Diplomatik nümayəndəliklərə qarşı terror hücumu qəbuledilməzdir!".




# Birinci vitse-prezident Mehriban Əliyeva ölkəmizin İrandakı səfirliyinə hücumla bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində ölkəmizin İrandakı səfirliyinə silahlı hücumla bağlı paylaşım edib.**

AZƏRTAC paylaşımı təqdim edir: "Bu gün Tehrandakı səfirliyimizə qarşı törədilmiş terror aktı zamanı həlak olmuş həmvətənimiz, baş leytenant Əsgərov Orxan Rizvan oğlunun doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin! Yaralıların tezliklə sağalması üçün dua edirəm. Uca Tanrı Azərbaycan xalqına yar olsun!".

# "Azərbaycanın yaşıl enerji potensialı yüksəkdir"

## Prezident İlham Əliyev "Brookfield Asset Management" şirkətinin baş icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də dünyanın aparıcı maliyyə şirkətlərindən biri olan "Brookfield Asset Management" şirkətinin baş icraçı direktoru Brüs Fløtti qəbul edib.**

AZƏRTAC xəbər verir ki, ölkəmizin əldə etdiyi nailiyyətlərin böyük maraq doğurduğunu vurğulayan Brüs Fløtt Bakıda gördükləri inkişaf proseslərinin dərin təəssürat hissi yaratdığını dedi. Qonaq "Brookfield Asset Management" şirkətinin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının genişləndiyini vurğuladı və bildirdi ki, rəhbərlik etdiyi şirkət peşəkar səviyyədə fəaliyyət göstərən ARDNF ilə əlaqələrindən qürur duyur. O, həmçinin Azərbaycanın əldə etdiyi uğurların ölkəmizin böyük nailiyyəti olduğunu vurğulayaraq təbriklərini çatdırdı.

Prezident İlham Əliyev Azərbaycan Dövlət Neft Fondunun dünyanın aparıcı maliyyə institutlarından biri olan "Brookfield Asset Management" şirkəti ilə uğurlu əməkdaşlığından məmnunluğunu bildirərək əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğunu dedi. Azərbaycan Dövlət Neft Fondunun fəaliyyətinin daim genişləndiyini vurğulayan dövlətimizin başçısı Fondun aktivlərinin hətta ən çətin dövrlərdə, o cümlədən pandemiya, maliyyə böhranları və neftin qiymətinin düşdüyü bir zamanda da artdığını qeyd etdi. Görüşdə, həmçinin Azərbaycanın yaşıl enerji potensialı və ölkəmizin regionda enerji habına çevrilməsi imkanları barədə fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, dünyanın ən böyük investisiya şirkətlərindən biri olan və əsas ofisi Kanadada yerləşən "Brookfield Asset Management" 1899-cu ildə təsis olunub və idarə etdiyi vəsaitlərin toplam dəyəri 750 milyard ABŞ dolları təşkil edir.

# YAP-ın Mərkəzi Aparatı Azərbaycanın İrandakı səfirliyinə silahlı hücumla əlaqədar bəyanat yayıb

**Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə silahlı hücumla əlaqədar bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir.**

Yanvarın 27-də Bakı vaxtilə 8:30 radələrində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə edilmiş silahlı hücum bütün Azərbaycan ictimaiyyəti kimi, Yeni Azərbaycan Partiyasının üzvlərinin də ciddi narahatlığına və böyük hiddətinə səbəb olmuşdur.



Dünyada tolerantlıq nümunəsi, multikulturalizm diyarı, sülh və sabitlik tərəfdarı kimi tanınan, dinc birgəyaşayışa, sivil inkişafa və ümumbəşəri dəyərlərin qorunmasına böyük önəm verən Azərbaycan Respublikası terrorun bütün forma və təzahürlərini rədd edərək qətiyyətlə pisləyir.

Dövlətimizi və xalqımızı hədəfə almış bu vandalizm aktının arxasında dayanan mənfur qüvvələr bilməlidirlər ki, insanlığa sığmayan, milli və dini dəyərlərə, sivil münasibətlərə və beynəlxalq hüquq normalarına zidd olan bu cür çirkin metodlarla Azərbaycana təsir və təzyiq göstərmək, onu hər hansı bir güzəştə məcbur etmək və müstəqil siyasətindən döndərmək mümkün deyil. 44 günlük Vətən müharibəsinin nəticələri və sonrakı proseslər göstərdi ki, Azərbaycan istənilən təhdidin qarşısını almağa, illərdir regionda kök salmış terrorizmin başını əzməyə və bütün strateji hədəflərini gerçəkləşdirməyə qadirdir. Regionda yeni reallıqlar yaradan, Cənubi Qafqazın lider dövləti kimi güc mərkəzinə çevrilən, dünyada etibarlı tərəfdaş kimi tanınan qalib Azərbaycanın qüdrətinin artmasından narahat olan qüvvələrin istənilən təxribat cəhdi iflasa məhkumdur və bundan sonra da heç bir nəticə verməyəcəkdir!

Yeni Azərbaycan Partiyası olaraq bu xain terror aktını qətiyyətlə pisləyir, şəhid olmuş Orxan Əsgərovun ailəsi və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralı qardaşlarımıza şəfa diləyir və İran İslam Respublikasından hadisənin hərtərəfli araşdırılaraq hüquqi qiymət verilməsini, qanlı təxribat törədən terrorçunun və onun arxasında dayanan sifarişçilərin layiqincə cəzalandırılmasını, nəhayət, Azərbaycan xalqından üzr istəyərək ölkəmizə qarşı uzun müddətdir ki, davam edən isterika və təbliğata son qoyulmasını, hadisənin əsl mahiyyəti ilə bağlı dəqiq və düzgün məlumat verilməsini tələb edirik!

*Azərbaycan bu gün iqtisadi inkişaf, ölkələrlə əməkdaşlığı möhkəmləndirmək və dərinləşdirmək sahəsində həyata keçirdiyi siyasət, sülhə, əmin-amanlığa, beynəlxalq hüquqa verdiyi dəstək baxımından dünyanın diqqət mərkəzində olan dövlətlərindən biridir. Həm də ölkəmiz etibarlı tərəfdaş kimi uzun illərdir dünya və Avropa bazarlarına xam neftin və qazını ixrac etməklə dövlətlərin və xalqların həyatının normal təmin olunmasına töhfələr verir və bu proses ildən-ilə sürətlənməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Xristos Kapodistriasın etimadnaməsini qəbul edərkən ölkələrimiz arasında enerji ilə bərabər, digər sahələrdə də əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu deyib.*

# Azərbaycanın dünyada nüfuzu daha da güclənir



## *PREZİDENT İLHAM ƏLİYEV: "Yunanıstan Azərbaycan qazının digər Avropa ölkələrinə çatdırılmasında tranzit ölkə rolunu oynayır"*

### CƏNUB QAZ DƏHLİZİ ÖLKƏLƏRİMİZİ BİRLƏŞDİRİR VƏ BÜTÖV BİR REGİONUN İNKİŞAFINA TÖHFƏ VERİR

Prezident İlham Əliyev Yunanıstanın Azərbaycanda yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edərkən Yunanıstan ilə Bolqarıstan arasında interkonnektorun açılış mərasimində iştirakını məmnunluqla xatırlayıb və bu layihənin Avropanın enerji təhlükəsizliyinə töhfə vermәsinin əhəmiyyətini vurğulayıb. Dövlətimizin başçısı Cənub Qaz Dəhlizinin ölkələrimizi birləşdirdiyini və bütöv bir regionun inkişafına töhfə verdiyini, ümumi maraq kəsb edən layihə olduğunu bildirib.

### LAÇIN-XANKƏNDİ YOLUNUN GUYA BAĞLI OLMASI BARƏDƏ ERMƏNİSTAN TƏRƏFİNİN İDDİALARI TAMAMİLƏ ƏSASSIZDIR

Görüşdə, həmçinin Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığı məsələlərinə də toxunuldu, Yunanıstanın Azərbaycanın hər iki təsisatla əlaqələrinin genişləndirilməsini dəstəklədiyi qeyd olundu. Söhbət zamanı regional məsələlərə toxunularaq, Azərbaycan ərazisində, Laçın-Xankəndi yolunda baş verən hadisələr haqqında məlumat verildi, yolun guya bağlı olması barədə Ermənistan tərəfinin iddialarının tamamilə əsassız olduğu bildirildi. Dövlətimizin başçısı görüş zamanı, həmçinin onu da qeyd edib ki, dekabrın 12-dən indiyədək Rusiya sülhməramlılarının və Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə mülki şəxslərin və mülki yüklərin, 1000-ə yaxın nəqliyyat vasitəsinin bu yolla hər iki istiqamətdə hərəkəti təmin olunub. Dövlətimizin başçısı, eyni zamanda onu da bildirib ki, ölkələrimiz arasında enerji ilə bərabər, digər sahələrdə də əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu da söyləyib.

### AZƏRBAYCAN YUNANISTANLA BÜTÜN SAHƏLƏRDƏ ƏMƏKDAŞLIĞI GÜCLƏNDİRMƏK NİYYƏTİNDƏDİR

Azərbaycanın əməkdaşlıq əlaqələrinin inkişafına mühüm önəm verdiyi ölkələrdən biri də Yunanıstandır. Rəsmi Afinanın da Azərbaycanla əməkdaşlığa olan marağı təkcə ölkəmizin malik olduğu strateji-coğrafi mövqe və zəngin karbohidrogen ehtiyatları ilə deyil, həm də möhkəm siyasi sabitliyə, demokratik inkişafa, beynəlxalq birliklə fəal inteqrasiyaya söykənən dövlətçilik kursunun dönməzliyi ilə şərtlənir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasında əlaqələr inkişaf etməyə başlayıb. Yunanıstanın Azərbaycandakı səfirliyi 1993-cü il mayın 27-də, Azərbaycanın Yunanıstandakı səfirliyi isə 2004-cü il aprelin 16-da fəaliyyətə başlayıb. Və ötən müddətdə iki ölkə arasında iqtisadi, sənaye, texnologiya, enerji, elm, təhsil, mədəniyyət, nəqliyyat, investisiyaların qorunması, gömrük sahələrində sazişlər imzalanıb. Dövlət başçımız Yunanıstına səfəri zamanı iki ölkə arasında əməkdaşlığı belə xarakterizə edib: "Əlaqələrimizin mühüm hissəsi enerji təhlükəsizliyi ilə bağlıdır. Burada Yunanıstan-Azərbaycan əlaqələri strateji əhəmiyyət daşıyır. TAP layihəsi nəinki enerji təhlükəsizliyi layihəsidir, eyni zamanda, iki ölkə arasındakı dostluq əlaqələrini daha da yüksək pilləyə qaldıracaqdır. Azərbaycanın təşəbbüsü ilə icra edilən "Şahdəniz", TANAP və TAP hazırda Avropanın ən böyük infrastruktur layihələridir. Bu layihələrin icrası nəticəsində bundan sonra onilliklər ərzində Azərbaycan Avropa bazarına öz təbii qazını ixrac edəcəkdir. Bu gün, eyni zamanda, qarşılıqlı investisiya qoyuluşu məsələləri də müzakirə edildi, mədəniyyət sahəsində əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Bir sözlə, bizim əlaqələrimiz çox geniş xarakter daşıyır və əminəm ki, gələcəkdə daha da sürətlə inkişaf edəcəkdir".

### PREZİDENT İLHAM ƏLİYEVİN MÜASİR ENEJİ STRATEGİYASI ÖLKƏMİZİ REGİONUN ENERJİ MƏRKƏZİNƏ ÇEVİRMƏKLƏ BƏRABƏR ONU AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİ SİSTEMİNDƏ APARICI ROL OYNAMASINA DA TƏKAN VERDİ

Dövlətimizin başçısı Yunanıstanın Azərbaycanda yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edərkən də bir daha bildirib ki, ölkələrimiz arasında enerji ilə bərabər, digər sahələrdə də əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar var. Bu gün iqtisadi müstəqilliyin verdiyi güc siyasi müstəqilliyin gücləndirilməsinə xidmət edərək, ölkənin bir nömrəli probleminin həllini də yaxınlaşdırdı. Prezident İlham Əliyevin müasir eneji strategiyası ölkəmizi regionun enerji mərkəzinə çevirməklə bərabər onu Avropanın enerji təhlükəsizliyi sistemində aparıcı rol oynamsına da təkan verdi və Avropanın enerji təhlükəsizliyində mühüm faktor olan Cənub Qaz dəhlizi çoxtərəfli tərəfdaşlığı genişləndirərək beynəlxalq əməkdaşlıq prosesini sürətləndirdi. Çünki Cənub qaz dəhlizi məhz Azərbaycanın təşəbbüsü, Azərbaycan Prezidentinin siyasi iradəsi və qətiyyəti nəticəsində reallığa çevrilən və Avropanın enerji xəritəsinə ciddi dəyişikliklər edən mühüm və böyük enerji infrastrukturudur.

Azərbaycan Cənub qaz Dəhlizi və bu dəhlizin əsas seqmentləri vasitəsilə öz qazını Avropa bazarlarına çıxarır. Tranzit və idxalçı ölkələrdən biri də qardaş Türkiyədir. Türkiyənin qaz bazarına 2007-ci ildən 2021-ci ilə qədər 85 milyard kubmetrdən çox təbii qaz ötürülüb. Beləliklə, Azərbaycan-Türkiyə münasibətləri enerji sahəsində də müttəfiqlik səviyyəsinə yüksəldi. Təhlükəsizliyi, inkişafı və tərəqqini təmin edən Azərbaycan-Türkiyə birliyi regionda yeni siyasi georeallıqların inkişaf proseslərinin aparıcı faktoru kimi də reytinq qazanmaqdadır. Cənub Qaz Dəhlizi ilə Azərbaycan və Türkiyə energetika sahəsində yeni əməkdaşlığın perspektivlərini müəyyənləşdirdi. Bu layihədən sonra nəinki ənənəvi neft kimya sektorunda eləcə də elektrik enerjisi yaşıl enerji konsepsiyası çərçivəsində alternativ və bərpa olunan enerji mənbələrinin birgə işlənməsi və ixracı sahəsində layihələr həyata keçirildi. Bir sözlə, bütün bunlar 2021-ci il 15 iyun tarixində Azərbaycan və Türkiyə dövlət başçılarının imzaladığı Şuşa Bəyannaməsində əksini tapan müddəalarda yer alıb. Şuşa Bəyannaməsində qaz və elektrik enerjisi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi haqqında da müvafiq müddəalar var ki, bu da Azərbaycanın həm iqtisadi, həm də siyasi maraqlarını tamamilə təmin edir. Və bu gün Cənub Qaz Dəhlizlə artıq qaz Türkiyə və Avropaya nəql olunur.

Dövlət başçımızın Yunanıstanın Azərbaycanda yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edərkən dediyi kimi, Cənub Qaz Dəhlizi ölkələrimizi birləşdirən və bütöv bir regionun inkişafına töhfə verən layihədir. Bu uğurlar isə, məhz prinsipial və alternativsiz mövqeyi ilə tanınan Azərbacan Prezidenti İlham Əliyevin möhtəşəm, qətiyyətli siyasətinin uğurlu nəticəsidir.

*RƏFİQƏ KAMALQIZI*

## YAP-ın Gənclər Birliyi İrandakı səfirliyimizə silahlı hücumla əlaqədar bəyanat yayıb




Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyi ölkəmizin İrandakı səfirliyinə silahlı hücumla əlaqədar bəyanat yayıb. Bəyanatda deyilir: Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi olaraq 2023-cü il yanvarın 27-də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə edilmiş silahlı hücumu qəti şəkildə pisləyir və kəskin etirazımızı bildiririk. Bu namərd hücum birbaşa olaraq Azərbaycan dövlətinə qarşı yönəlmiş terror aktıdır. Bu vandalizmin uzun illərdir ki, ölkəmizin əleyhinə çirkin təbliğatın, milyonlarla soydaşımıza qarşı yersiz və haqsız "mübarizə"nin aparıldığı, Azərbaycana qarşı təxribat xarakterli addımların atıldığı İran İslam Respublikasında baş verməsi təsadüfi deyildir.

Heç şübhəsiz, Azərbaycan dövlətinə qarşı təxribatlar törədənlər və onlara dəstək olanlar hər zaman öz layiqli cavablarını alırlar. Qırx dörd günlük Vətən müharibəsində bəzi ölkələr, o cümlədən İran tərəfindən göstərilən dəstəyə baxmayaraq, biabırçı şəkildə məğlubiyyətə uğrayan Ermənistanın və erməni terrorizminin başının əzilməsi bu reallığın bariz nümunəsidir.

Terror aktı nəticəsində şəhid olmuş Orxan Əsgərovun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılarımıza şəfa diləyir, diplomatik nümayəndəliyimizin qorunmasına cavabdeh olan İran İslam Respublikasından bu xain hücumun arxasında duranların ən qısa zamanda müəyyənləşdiriləræk layiqincə cəzalandırılmasını tələb edirik.

## Səfirliyimizə hücum edən terrorçunun fotosu

Xəbər verdiyimiz kimi, dünən Bakı vaxtı ilə səhər saat 8:30 radələrində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə silahlı hücum olub. SİA-nın məlumatına görə, hücum edən şəxs avtomat silahla mühafizə postunu yararaq, mühafizə xidmətinin rəisini qətlə yetirib. Səfirliyin iki nəfər mühafizə əməkdaşı da hücumun qarşısını alarkən yaralanıblar.



Hücum anının videogörüntülərindən məlum olur ki, terrorçu səfirliyin bütün əməkdaşlarını öldürməyi planlayıb. Səfirliyin mühafizəçisinin çevik müdaxiləsi nəticəsində böyük bir itkinin qarşısı alınıb. Azərbaycan səfirliyinə hücum edən terrorçunun fotosunu təqdim edirik.

TƏHLİL + YANAŞMA

# Nə qədər terror?..




**1989-1990-ci illərdən bəri Ermənistanın Azərbaycana qarşı yeni ərazi iddiaları başlanandan xalqımız bir-birinin ardınca onlarla terror hadisəsi ilə qarşılaşıb. Bunlar Ermənistanın Azərbaycana qarşı törətdiyi amansız terrorlardır. Bu terrorlar miqyasına və törədilməsinə görə soyqırımından, faciədən, qırğın-qiyamətdən, didərginlikdən, təxribatdan, hiyləgərlikdən qat-qat yuxarıda dayanır.**

2020-ci ilin sentyabr ayınadək ötən 30 illik zaman kəsiyində olmazın terrorları ilə üzüzə gəldik. 20 Yanvar 1990-cı ildə Bakıda törədilən qətliamı deyək, 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecədəki Xocalı faciəsini deyək, 1989-1990-cı illərdən başlayaraq ermənilərin sərhədlərimizə basqınlarını, yüzlərlə övladımızın vəhşicəsinə qətlə yetirilməsini deyək, Birinci Qarabağ Müharibəsindəki insanlığa qarşı dəhşətli hadisələri deyək, soydaşlarımızın zorla ata-baba yurdlarından qovulmasını deyək, 20 faizdən artıq torpaqlarımızın işğalını, bu torpaqların yeraltı və yerüstü sərvətlərinin talanmasını deyək, ermənilərin əli ilə xarici ölkələrdə yaşayan soydaşlarımın qətlə yetirilməsini deyək, bəzi ölkələrdəki səfirliklərimizə hücum aksiyalarını təşkil etdiklərini deyək, 44 günlük Vətən müharibəsindən sonra minlərlə soydaşımızın mina qurbanı olmasını deyək, yenə də torpaqlarımızda erməni qruplaşmalarının ekologiyamıza vurduğu ziyanı, bu terrora qarşı ekofəalların artıq 47-ci gündür ki, keçirdikləri etiraz aksiyasını deyək, hansını deyək ki, erməni xislətini açıq ortaya qoya bilsin.

Bu gün Tehranda Azərbaycan səfirliyinə hücumun, bu rəsmi qurumda azərbaycanlı vəzifəli şəxsin qətlə yetirilməsi, səfirlik əməkdaşlarının yaralanması videosunu seyr edərkən adamda belə bir fikir formalaşır ki, burada da sözsüz ki, erməni əli vardır. Bəs nə qədər terror?..

## Səfirliklərimizdə terror

2020-ci ilin Tovuz hadisələrindən dərhal sonra səfirliklərimizə basqınları, diplomatlarımıza qarşı təcavüzləri yaxşı xatırlayırıq. 12-14 sentyabr hadisələrindən sonra belə hal ABŞ, London, Livan, Fransa və digər ölkələrdə təkrarlanıb. Bu ölkələrdə yaşayan ermənilərin müxtəlif qruplaşmalar, bəzən isə açıq şəkildə səfirliklərimizə hücumu və həmin dövlətlərin buna göz yumması erməni sevdalılarının onları müdafiə etmək istəyindən başqa bir şey deyil. Erməni sevdalıları deyirik. Əslində isə bu, bir sevda deyil. Həmin dövlətlərin erməniləri çox yaxşı tanımasından irəli gələn haldır. O mənada ki, həmin dövlətlər erməni kimi xislətsiz qəbiləni əldə saxlayıb ondan bəzi məqamlarda istifadə etməyi zamanın sınağından çıxarmış, bu səbəbdən də erməninin əldə saxlamağın onlara etdiyi səfri digər bir xalqın dövlət qurumuna hücumdan üstün hesab edirlər. Haqqın, ədalətin kimin tərəfində olduğunu çox yaxşı bilən, lakin 30 ildəki kimi yenə də qulaqlarını pambıqlayan, gözlərini yumanlar onu da yaxşı bilməlidirlər ki, bütün dünyaya kim olduqlarını sübut edirlər. Sübut edilər ki, ötən 30 ildə Azərbaycanın bütün beynəlxalq təşkilatlar qarşısında Qarabağla bağlı qaldırdığı tələbə niyə susurduq. Sübut edirlər ki, 30 ildə Qarabağ mövzusu ortaya gələndə niyə özümüzü karlığa vururduq. Lakin unudulmayacaq bir məsələ də var ki, səfirliklər, onların yerləşməsi, təhlükəsizliyi haqqında bütün dövlətlər üçün qanunauyğunluqlar mövcuddur. Və bu qanunları pozmağa, təxribata yol verməyə heç kimin haqqı və hüququ yoxdur. Bunun üçün hər hansı münaqişənin törədilməsinə yol verən dövlət beynəlxalq hüquq qarşısında cavab verməlidir.

Bütün bu hadisələrin fonunda demək olar ki, Tehranda Azərbaycan səfirliyində törədilən terror aktında da ermənilərin əli olmaya bilməz. İranda baş verən hadisələr, orada yaşayan azərbaycanlılara molla rejiminin tutduğu divan, insanların bu rejimə qarşı mübarizəyə qalxması, rejimin ermənipərəst addımları onsuz da bir neçə vaxtdır ki, iki ölkə arasında münasibətlərin kəskin şəkildə dəyişməsi ilə müşahidə olunurdu. Belə bir vaxtda səfirlikdə bu hadisənin törədilməsi çox güman ki, ermənilərin hadisələrdən növbəti dəfə yararlanmasıdır. Həmişə qızışdırıcı mövqedə olan, yalan xislətli, fırıldaqçı ermənidən bundan fərqli nə gözləmək olar ki?.. Bəs nə qədər terror?..

## Mina terroru

Dünya susur, susduqca da ermənilərə əlqol verir, onları azərbaycanlılara qarşı yeni terror hadisələri törətməyə şövqləndirir. Artıq iki ilə yaxındır düşmənin minalanmış ərazilərin xəritəsini verməli olduğu halda verməməsinə də susurlar. Bu isə müharibədən ötən dövr ərzində dəfələrlə insanların minaya düşərək həyatlarını itirməsinə səbəb olub. Bu hadisələrin növbətisi ötən il avqustun 2-də baş verdi. Minatəmizləmə işləri ilə məşğul olan şirkətin 3 əməkdaşının Füzuli rayonunun Qaraxanbəyli kəndi ərazisində piyada əleyhinə minaya düşərək müxtəlif bədən xəsarəti alması ermənilərin Azərbaycana qarşı terror siyasətinin davamıdır.

Bu və bundan əvvəl bir neçə dəfə soydaşlarımızın minaya düşərək həyatlarını itirməsi və ya ağır bədən xəsarəti alması Ermənistanın minalanmış ərazilərin xəritəsini təcili şəkildə təhvil verməli olduğunu daha bir nümunəsidir. Lakin onlar bunu etmir, dünya da bu qədər insan ölümünə susur, susur...

2021-ci ilin iyun ayının 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsinin tank əleyhinə minaya düşməsi nəticəsində azərbaycanlı jurnalistlərin ölüm xəbərindən təəssüfləndiyini bildirən ABŞ-ın Azərbaycandakı sabiq səfiri Metyu Brayza demişdi: "Azərbaycan hökuməti minaları zərərsizləşdirmək üçün mümkün olan hər şeyi edir. Amma Ermənistanın bu xəritələri təhvil verməsi beynəlxalq humanitar hüququn tələbidir. Buna heç bir bəraət qazandırmaq olmaz. Bu, beynəlxalq humanitar hüququn pozulması deməkdir. Ümid edirəm ki, ATƏT-in Minsk qrupu və həmsədrlər, eləcə də Avropa İttifaqı Ermənistanı həmin xəritələri təhvil verməyə çağıracaq".

Həmin çağırışdan bir ildən artıq vaxt keçsə də, lakin hələ də Minsk qrupu, Avropa İttifaqı bu insan itkilərinə reaksiyasız şəkildə öz fəaliyyətlərini davam etdirirlər. Elə bu səbəbdən də artıq Azərbaycan işğala son qoyub, Azərbaycan öz ərazi bütövlüyünü hərbi və siyasi yolla təmin edib. Belə olduğu halda artıq Minsk qrupuna ehtiyac yoxdur, biz Minsk qrupu ilə vidalaşmışıq, onlarla sağollaşmışıq, deyən dövlətimizin başçısı fikrini belə tamamlamışdır: "Lakin təəssüflər olsun ki, Ermənistan tərəfi və digərləri bu qrupu canlandırmaq istəyirlər. Bildirmək istəyirəm ki, bu, qeyri-mümkündür. Artıq o qrup ölüdür, cansızdır. Biz işğaldan xeyli əziyyət çəkmişik və bunu açıq-aydın şəkildə bildiririk. Düşünürəm ki, ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya nəinki qeyri-məhsuldardır, eyni zamanda dağıdıcıdır, regionda sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir".

Cenevrə Konvensiyasına və beynəlxalq protokollara görə tərəflər minalanmış ərazilərin xəritələrini müharibə başa çatdıqdan sonra bir-birinə təqdim etməlidirlər. Ermənistan isə beynəlxalq sənədlərə, dövlətinin rəsmisinin imzaladığı kapitulyasiya aktına zidd olaraq xəritələri hələ də Azərbaycana təqdim etmək fikrində deyil. Hələ üstəlik həyasızcasına bu xəritələrin, ümumiyyətlə, olmadığını da iddia edirlər. Lakin bu, onların növbəti yalanı, məğlubiyyətlərinin acısından gizlətdikləri, əslində isə var olan xəritələrdir.

Birinci Vətən Müharibəsindən sonra 2000 nəfərdən çox soydaşımız mina qurbanı olmuşdur. Bu gün azad etdiyiniz torpaqlarımızın isə təqribən 13 kvadratkilometri minalarla əhatə olunmuşdur. Bu ərazilərdə dəfələrlə bədbəxt hadisələrin baş verməsi minalanmış ərazilərin xəritəsinin olmaması səbəbindəndir. Odur ki, mina qurbanı olan soydaşlarımızın sayı 3000-ə yaxınlaşır. Bu terrora nə vaxt son qoyulacaq?

## Ekoloji terror

1988-1990-cı ermənilər tərəfindən sərvətlərimizin talan edilməsi, ekologiyamıza vurulan milyonlarla manat dəyərində ziyan illərdə Birinci Vətən Müharibəsinə aparan yolun başlanğıcı oldu.

Qədim tarixə malik Topxana meşəsi Şuşanın nadir sərvətlərindən biridir. Şuşa ətrafındakı torpaqların 20 faizini əhatə edən meşədə palıd, fıstıq, qaraağac kimi ağaclar vardı. Topxana əsl təbiət möcüzəsi idi, meşənin heyvanat aləmi ayı, canavar, tülkü, dovşan, cüyür və digər heyvanlardan, kəklik, turac, göyərçin kimi gözəl quşlardan ibarət idi. Topxana meşəsində subalp və alp çəmənləri, dərin dərələrində bulaqlar vardı.

Həmin dövrdə eşitdik ki, işğalçı ermənilər sərvətlərimizi talan edir, meşələrimizi qırıb daşıyırlar. Təxmini məlumatlara görə, Topxanadan 2000 ədəddən çox palıd və digər qiymətli ağaclar kəsilərək Ermənistana daşınıb. Şuşanın Cıdır düzündə, "Ağzı yastı" kaha adlanan yerin qarşısında Topxana meşə qoruğu zonasında, meşənin lap hündür yerində geniş düzənlik açılıb, orada müxtəlif adda qiymətli ağaclar qırılaraq tikinti işlərində istifadə edilib.

30 il sonra topraqlarımız işğaldan azad ediləndən, düşmənə 2020-ci ilin 44 günlük payızında həddi göstəriləndən sonra yenə də terror hadisələrindən yaxa qurtara bilmirik. Ötən ilin sonlarında Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qanunsuz istismarına etiraz əlaməti olaraq Azərbaycanın qeyri-hökumət təşkilatlarını təmsil edən ekoloqların, fəalların, könüllülərin iştirakı ilə Laçın-Şuşa yolunda keçirilən etiraz aksiyası artıq 47 gündür ki, davam edir. Bu aksiyaya ölkənin müxtəlif regionlarından olan fəallar qoşulur. Etirazçıların tələbləri dəyişməzdir: Azərbaycanın təbii sərvətlərinin talan edilməsinə son qoyulmalı, aksiya iştirakçılarının Qızılbulaq qızıl yatağına və Dəmirli mis-molibden yatağına baş çəkmələri təmin edilməli, Rusiya sülhməramlı kontingentinin komandanı general-mayor Andrey Volkov aksiya keçirilən yerə gəlməlidir.

Xatırladaq ki, 2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. 47 gündür, xalqımızın nümayəndələri qışın bu soyuqlu-sazaqlı havasında Laçın-Şuşa yolunda sülhdən və insanlıqdan əsər-əlaməti olmayanlarla üz-üzədirlər. Televiziya və internet üzərindən izlədiyimiz aksiya könlümüzü qürur hissi ilə doldurur. Aksiya iştirakçıları "Şəhidlər ölməz, Vətən bölünməz", Azərbaycan oyaqdır, sərvətinə dayaqdır", "Qarabağ Azərbaycandır!" kimi şuarlar, Vətən, torpaq haqqında mahnılar səsləndirir, ekoloji terrora son qoyulmayanadək aksiyanı davam etdirəcəklərini bildirirlər. Bütün bunları izləyərkən yenə də deyirsən: axı nə qədər terror?

## İnsan terroru

Hələ 1905-1907, 1918, 1948-1954 və 1988-ci illərdə ermənilərin azərbaycanlılara qarşı deportasiya və soyqırımı vəhşiliyindən danışmıram. 1990-cı ildən bu yana olan insan terrorundan söhbət açmaq istəyirəm. Birinci Qarabağ Müharibəsində sərhədlərimizdə və müharibə bölgəsindən uzaq ərazilərdə insanların qətlə yetirilməsindən, ermənilərin insan terroru həyata keçirməsindən danışmaq istəyirəm. 20 Yanvar-bəli, məlumdur kimlər tərəfindən törədildi. Lakin bu hadisədə erməni barmağının olmadığını kim deyə bilər?

Xocalı faciəsindən söhbət açaq. Bütün bəşəriyyətə və insanlığa qarşı ağır terror hadisəsi olan bu faciə nə üçün törədilməli idi? Nə üçün bütün dünya bu qədər ağır hadisəyə göz yumdu, qulaqlarını tıxadı? Bax elə bu səbəbdən ondan sonra da terror hadisələri yaşanacaqdı. Çünki o, cavabsız, cəzasız qalmışdı. Deməli, davam etdiriləcəkdi. İkinci Qarabağ Müharibəsində 44 gündə ermənilərin dinc əhalinin yaşadığı əraziləri nəhəng artilleriyalardan atəşə tutmasına, evləri-həyətləri dağıtmasına, insanların ömrünü sonlandırmasına, Gəncəyə atdıqları raketlə neçə-neçə uşağın ölməsinə, valideynlərini itirməsinə, dağıntılara səbəb olmasına da dünya susdu. Etirazını bildirmədi. Ermənilərin bu vəhşiliyinə reaksiya verilmədi. Deməli, davamını da görəcəkdik. Azərbaycanın İran İslam Respublikasındakı səfirliyində baş verən terror aktı kimi...

Hər hansı bir ölkənin ərazisində yerləşən səfirliyin təhlükəsizliyinə həmin ölkənin cavabdeh olduğunu nəzərə alaraq görək İran bu hadisə fonunda necə hərəkət edəcək, bu terror aktını necə araşdıracaq, ortaya nələri çıxaracaq? Bir çox ölkə rəsmilərinin münasibət bildirdiyi bu terror hadisəsi inanaq ki, cəzasız qalmayacaq. Burada kimin nə dərəcədə günahının olduğu aşkar ediləcək və günahkar cəzasını çəkəcəkdir. Bunu o qədər böyük ümidlə gözləyirik ki... Çünki aydın şəkildə bilirik ki, dünya susduqca, terrorlar artır. Xüsusilə erməni terroru və ermənilərin barmağı olan terrorlar. Axı nə qədər terror görəcəyik? Nə vaxta, nə zamanadək? Bəsdir ta. Bu terrorları törədənlərə ar olsun!

***Mətanət Məmmədova***

# İran kəşfiyyatı bu terroru da etdi!

## Rəsmi Tehran hesabat verməlidir!




***Artıq uzun müddətdir ki, Azərbaycan dövlətinə qarşı hədsiz yanlışlıqlar nümayiş etdirən Tehran rejimi bu dəfə tamamilə qırmızı xətti keçdi və səfirliyimizə edilən xain, rüsvayçı silahlı hücum, eləcə də, bu hücumun ağır nəticəsi də belə deməyə əsas verir ki, artıq həmin hücum bilavasitə ölkəmizə qarşı əvvəlcədən hazırlanmış terror hadisəsidir. Terror bütün dünyada lənətlənir və bu baxımdan, sözügedən qanlı olaya görə bilavasitə özünü "İslam Respublikası" adlandıran, habelə din pərdəsi altında düşmənlərimizlə əlbir olan Tehran rejimi cavab, eləcə də hesabat verməlidir!***













Qeyd edək ki, artıq Prezident İlham Əliyev İrandakı Azərbaycan səfirliyinə hücumla bağlı rəsmi tvitter hesabında paylaşım edib. O, diplomatik nümayəndəliklərə qarşı edilən hücumların qəbuledilməz olduğunu vurğulayıb:

### Beynəlxalq diplomatik hüquqa, qanunlara görə bir ölkənin səfirliyinə edilən hücum həmin ölkəyə qarşı edilən hücum kimi anlaşılır

Azərbaycanın regionda müstəqil siyasət yürütməsi, bu siyasət vasitəsi ilə sülh və inkişaf, mehriban qonşuluq prinsiplərinə yönəldilmiş çağırışları isə, görünür, bölgəmizdə bu kimi ideyaların bərqərar olmasına əngəllər yaradan Ermənistana və ona havadarlıq edən İrana sərf etmir. Əgər bu gün İran adlı "məmləkət" və onun başıəmməli başbilənləri baş vermiş terror olayına görə yaxalarını kənara çəkib susqunluq nümayiş etdirirlərsə, yaxud bu olayla bağlı guya (!) "əlaqələrinin olmadığını" iddia edirlərsə, artıq həmin iddialara əsla, heç zaman inanmaq olmaz! Beynəlxalq diplomatik hüquqa, qanunlara görə bir ölkənin səfirliyinə edilən hücum həmin ölkəyə qarşı edilən hücum kimi anlaşılır və Tehrandakı diplomatik nümayəndəliyimizə edilən bu hücum da eyni paralelliyi təşkil edir. İran polisi istədiyi "versiyasını" irəli sürə bilər, amma artıq ortada bir şəhidimiz və iki yaralımız var. Bax, buna görə cavab verilməlidir!

### İlk rəsmi bəyanatlar Türkiyədən gəldi!

O da əbəs deyil ki, hər zaman olduğu kimi, qardaş Türkiyə dərhal öz qətiyyətli mövqeyini açıqlayıb. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu qanlı olay baş verəndən dərhal sonra azərbaycanlı həmkarı Ceyhun Bayramova telefon zəngi edərək hadisəyə görə narahat olduğunu xüsusilə vurğulayıb.

O, Azərbaycanın Tehrandakı səfirliyinə hücumla bağlı başsağlığı verib və Türkiyənin Azərbaycanın yanında olduğuna əmin edib. Türkiyəli nazir olayı terror kimi qiymətləndirib.

### Türkiyənin digər rəsmiləri də terror hadisəsi ilə bağlı rəsmi tvitter hesablarında bəyanatlar veriblər

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı: "Azərbaycanın Tehrandakı səfirliyinə edilən xain hücumu pisləyirik. Allah şəhidimizə rəhmət eləsin, yaxınlarına və Azərbaycan xalqına başsağlığı verir, yaralılara şəfa diləyirik".

Türkiyə Xarici İşlər Nazirliyi: "Bu səhər Azərbaycanın Tehrandakı səfirliyinə silahlı hücumu pisləyirik. Bu hücum nəticəsində dünyasını dəyişən səfirliyin əməkdaşına Allah rəhmət eləsin, yaralılara şəfa diləyirik. Bu dəhşətli hücuma görə məsuliyyət daşıyanların dərhal tapılıb mühakimə olunması və təkrarlanmaması üçün bütün lazımi tədbirlərin görülməsi vacibdir. Qardaş Azərbaycan heç vaxt tək olmayıb. Biz həmişə olduğu kimi, Azərbaycana dəstəyimizi davam etdirəcəyik".

Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AKP) sədr müavini Binəli Yıldırım: "Azərbaycanın Tehrandakı səfirliyinə hücumu pisləyirəm. Hücumda həlak olan qardaşımıza Allah rəhmət eləsin. Azərbaycana başsağlığı verir, yaralılara şəfa diləyirəm".

Türkiyənin Ailə və Sosial Xidmətlər naziri Daria Yanık: "Azərbaycanın Tehrandakı səfirliyinə hücumu lənətləyirəm. Hücum zamanı dünyasını dəyişən mühafizəçinin ruhu Uca Allahdan rəhmət eləsin. Yaralılara şəfa diləyirəm".

ANALİTİK-FOTOFAKT

Ardı Səh. 6

# İran kəşfiyyatı bu terroru da etdi!

## Rəsmi Tehran hesabat verməlidir!




Əvvəli-Səh-5

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop: "Azərbaycanın Tehrandakı səfirliyinə edilən alçaq hücumu pisləyirəm. Mən Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarovaya zəng edərək, hücum nəticəsində həlak olan qardaşımıza kədərləndiyimizi bildirdim, qardaş Azərbaycan xalqına başsağlığı verdim".

### Beynəlxalq aləmdən Azərbaycana dəstək və terrora lənət bəyanatları!

Ukrayna Xarici İşlər Nazirliyi Azərbaycanın İrandakı səfirliyinə silahlı hücumu pisləyib.

Şimali Kipr Türk Respublikasının xarici işlər naziri Tahsin Ərtoğruloğlu: "Azərbaycanın İrandakı səfirliyinə edilən xain hücumu qətiyyətlə pisləyirəm. Mərhumun ailəsinə və Azərbaycan xalqına başsağlığı verirəm".

### BMT Azərbaycanın İrandakı səfirliyinə hücumu pisləyib

"Azərbaycanın İrandakı səfirliyinə edilən hücumu qətiyyətlə pisləyirəm". Bunu BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva tvitterdə yazıb. "Mülki şəxslərə və mülki obyektlərə, o cümlədən diplomatik missiyalara qarşı hücumlar beynəlxalq humanitar hüquqa əsasən qəti şəkildə qadağandır. Mərhumun ailəsinə başsağlığı verir və yaralananlaraşəfa deyirəm".

### O cümlədən, ABŞ səfirliyi də Azərbaycanın İrandakı səfirliyinə terror hücumu ilə bağlı başsağlığı verib

Böyük Britaniyanın Azərbaycandakı səlahiyyətli səfiri Fergus Auld: "Azərbaycanın İrandakı səfirliyinə silahlı hücum edilməsi və səfirlik əməkdaşının qətlə yetirilməsi xəbəri məni sarsıtdı"

Böyük Britaniyanın Azərbaycandakı səlahiyyətli səfiri Fergus Auld Azərbaycanın İrandakı səfirliyinə edilən hücumla bağlı başsağlığı verib. O, bu barədə "Twitter" hesabında paylaşım edib: "Azərbaycanın İrandakı səfirliyinə silahlı hücum edilməsi və səfirlik əməkdaşının qətlə yetirilməsi xəbəri məni sarsıtdı. Qətlə yetirilən şəxsin ailəsinə baş sağlığı verir, yaralılara şəfa diləyirəm", deyə səfir qeyd edib.




### Almaniyanın Azərbaycandakı səfiri Ralf Horlemann: "Düşüncələrimiz və dualarımız qurbanların ailələri ilədir"

Azərbaycanın İrandakı səfirliyinə hücumu qınayıb: "Biz Azərbaycanın Tehrandakı səfirliyinə edilən ölümcül hücum xəbərindən sarsıldıq və hər cür zorakılığı pisləyirik. Düşüncələrimiz və dualarımız qurbanların ailələri ilədir", səfir vurğulayıb.

Rusiya Federasiyası xarici işlər nazirliyinin sözçüsü Mariya Zaxarova da hadisə ilə bağlı bəyan edib ki, Tehranda Azərbaycan səfirliyinə edilən hücum və hücum zamanı təhlükəsizlik əməkdaşının ölümü, iki nəfərin isə yaralanması onları şoka salıb. "Azərbaycanlı həmkarlarımıza başsağlığı və dəstəyimizi bildiririk! Daha sonra bu məsələ ilə bağlı ətraflı şərh verəcəyik", deyə Zaxarova qeyd edib.

Onu da qeyd edək ki, baş verən hadisə heç də iranlı hüquq mühafizəçilərinin iddiaları ilə "məişət etirazına" söykənmir. Belə ki, İran polisinin rəsmisi həmin hadisəni dərhal məişət motivinə tərəf yönəltməyə cəhd edib. Lakin belə bir cəhd heç bir əsasa, sübuta söykənmir. Bu baxımdan, daha yaxşı olardı ki, Tehranın müvafiq strukturları daha müfəssəl məlumatlar verərək hadisənin terror olduğunu etiraf etsinlər. Çünki müxtəlif ciddi mənbələr də qeyd edirlər ki, səfirliyimizə edilən hücumun əsas məqsədi orada çalışan insanlarımızın hər birini qətlə yetirməkdən ibarət olub. Ona görə də Tehran polisinin verdiyi məlumatları dünya ictimaiyyətinin diqqətini bu olaydan yayındırmağa hesablanıb.

### İran tərəfi məsuliyyəti yaxasından kənara atmamalıdır!

Digər tərəfdən, "Təbriz-Turan-TV"(TTTv) teleqram kanalı özünə yaxın etibarlı mənbələrə istinadən xəbər verir ki, Azərbaycanın İrandakı səfirliyinə qarşı edilən terror hücumunun arxasında birbaşa İranın xüsusi xidmət orqanları dayanır. "Başlanğıcda İran tərəfi öz izlərini ört-basdır etməyə və diqqəti yayındırmağa çalışaraq guya "erməni izi" ilə bağlı fikirlər səsləndirir, bu, açıq-aşkar yalan və Azərbaycan ictimaiyyətini çaşdırmaq cəhdidir", deyə qeyd edən adıçəkilən kanal əlavə edib ki, İran təbliğatının əsas götürdüyü növbəti versiya "məişət məsələsi" və eləcə də guya terrorçunun iranlı polislər tərəfindən yaxalanması da yalandır. Videokadrlardan da görünür ki, onu məhz Azərbaycan səfirliyinin təhlükəsizlik əməkdaşı saxlayır.

İranın xarici ölkələrdə terror dalğası əsdirməsi ilə bağlı yeni məlumatlar yayılıb.

Bu İran kəşfiyyatının xarici ölkələrin diplomatik nümayəndəliklərinə qarşı törətdiyi ilk terror aksiyası deyil!

Bir müddət əvvəl "Arab News" xəbər saytı bildirmişdi ki, daxildəki iğtişaşlara baxmayaraq, İran xarici ölkələrdəki terror fəaliyyətlərinə davam edir. Məsələn, ötən ay Albaniyada bir nəfər İran vətəndaşı İran hökuməti adına Albaniyadakı iranlı müxaliflər arasında kəşfiyyat aparmaq və terror fəaliyyətlərində iştirak etməkdə ittiham olunaraq həbs olunub.

Sözügedən şəxs teleqram sosial şəbəkəsi üzərindən təlimatlar alaraq mühacirətdəki nüfuzlu müxalifət üzvlərinə hücumlar planlaşdırıb. Bundan başqa, o, aldığı təlimatlara uyğun olaraq, Albaniyada terror hücrələri qurmaq, qara bazardan silah təmin etmək və cinayət törətməyə hazır hərbi təcrübəsi olan insanlar tapmaq kimi fəaliyyətlərdə iştirak edib. Albaniya məhkəməsi, o cümlədən bir sıra İran vətəndaşlarını İranın kəşfiyyat orqanları, İslam İnqilabı Keşikçiləri Korpusu və bu korpusun bir şöbəsi olan Qüds Qüvvəsi təşkilatından pul əldə etməkdə ittiham edib. Bundan başqa, 2018-ci ildə İranın diplomatı Əsədulla Əsədiyə Parisdə iranlı müxaliflərin yürüşü zamanı partlayış təşkil etməkdə iştirakına görə Belçikada 20 il iş kəsilib.

Eyni şəkildə, Küveyt məhkəməsi bu ölkədəki İran səfirliyinin terror hücrələri yaratdığını aşkarlayıb və diplomatları ölkədən ixrac edib. Beləliklə, İran xarici ölkələrdəki səfirlikləri, mədəniyyət mərkəzləri və diplomatları vasitəsilə hücrələr və terror qruplaşmaları yaradır. Türkiyə iyun ayında bu ölkədəki İsrail vətəndaşlarını öldürməyə çalışan İran hücrəsinin 8 nəfər üzvünü saxlayıb. Danimarka məhkəməsi də 2020-ci ildə iranlı ərəb müxaliflərə qarşı sui-qəsd təşkil etdiyinə görə İrana işləyən bir nəfər agenti məhkum edib.

Xəbərdə qeyd olunur ki, İranın kəşfiyyat idarələri, habelə xarici ölkələrdəki "dost jurnalistlər" və "akademiklər"dən istifadə edərək dezinformasiya yayır.

Beləliklə, İran Azərbaycana qarşı bunu da etdi və rəsmi Tehran cavab, yaxud hesabat verməlidir!

**Rövşən RƏSULOV**






# Dünya ölkələri İranda Azərbaycan səfirliyinə terror hücumunu pisləyir!

## Dünyanın aparıcı KİV-ləri Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən terror aktını geniş işıqlandırıblar

Dünya ölkələrinin xarici siyasət qurumları və rəsmi şəxsləri Azərbaycanın İrandakı səfirliyinə qarşı terror aktını pisləyən bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, hadisə ilə bağlı xarici ölkələrin və beynəlxalq təşkilatların nümayəndələri etiraz bəyanatları səsləndiriblər. Hadiyəsə dərhal reaksiya verən Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu xain hücumu pisləyərək "Azərbaycan heç zaman tək deyil" mesajını verib: "Şəhid qardaşımıza Allahdan rəhmət, yaxınlarına və Azərbaycan xalqına başsağlığı, yaralananlara tezliklə şəfa tapmalarını diləyirəm. Azərbaycan heç zaman tək deyil. Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir". Bundan əlavə, Mövlud Çavuşoğlu nazir Ceyhun Bayramova zəng edərək hadisəni müzakirə edib və bu hücumu bir daha qətiyyətlə qınayıb.

Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Peter Mixalko diplomatik nümayəndəliklərə hücumları qəbuledilməz olduğunu bildirib və Azərbaycanın Tehrandakı səfirliyinə silahlı basqın nəticəsində insan tələfatı və yaralananlar barədə xəbərlərin onu dəhşətə gətirdiyini yazıb.

Eynilə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova da bu silahlı hücumdan şoka düşdüklərini qeyd edib. "Azərbaycan səfirliyinə növbəti hücum və mühafizə əməkdaşının qətlə yetirilməsi bizi şoka saldı. Azərbaycanlı həmkarlarımıza başsağlığı verir və onlara dəstəyimizi ifadə edirik", - deyə Zaxarova vurğulayıb.

Türkiyə, Rusiya, Belarus, İsrail, Ukrayna, Gürcüstan, Səudiyyə Ərəbistanı, Slovakiya, Birləşmiş Ərəb Əmirlikləri, Moldova, Estoniya, Niderland, Misir, Özbəkistan, Şimali Kipr, Qazaxıstan, Qırğızıstan və digər ölkələrin Xarici İşlər nazirlikləri və rəsmi şəxsləri də diplomatik nümayəndəliyə silahlı hücumu pisləyən açıqlamalarla çıxış ediblər.

Bundan başqa, Azərbaycanda akkreditə olunan diplomatik korpusun nümayəndələri də ölkəmizlə həmrəylik nümayiş etdirərək, həlak olan vətəndaşımızın ailəsinə başsağlığı veriblər. ABŞ, Əfqanıstan, İtaliya, İsrail, Belarus, İraq, Xorvatiya, Yaponiya, Polşa, Rusiya, Litva, Fələstin, Argentina, Mərakeş, Fransa, Böyük Britaniya səfirlikləri bu terror aktını beynəlxalq hüquq üçün adlandırıblar.

Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Buriç, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva, həmçinin GUAM və Türk Dövlətləri Təşkilatı diplomatik missiyaya qarşı bu cinayəti qəti şəkildə qınadıqlarını açıqlayıblar.

İtaliyanın aparıcı kütləvi informasiya vasitələri yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə edilən silahlı hücumla bağlı məlumatları diqqət mərkəzində saxlayıb.

Belə ki, "Ansa", "Rai", "il Sole 24 Ore", "il Giornale", "il Messaggero", "La Gazzetta del Mezzogiorno", "Agenzia Nova", "Bluewin", "Notizie" kimi mətbu orqanlar Azərbaycanın Xarici İşlər Nazirliyinin məlumatlarına istinad edərək xəbərlər yayıb, hadisə ilə bağlı səfirliyin müşahidə kameralarının videogörüntüləri paylaşılıb. Silahlı hücum nəticəsində səfirliyin mühafizə əməkdaşlarından birinin həlak olduğu, iki nəfərin isə yaralandığı bildirilib. Həmçinin səfirlik əməkdaşlarının İrandan təxliyə edildiyi də vurğulanıb.

Bundan başqa, Azərbaycanın İrandakı səfirliyinə bugünkü silahlı hücum barədə Belçikanın və Lüksemburqun bir sıra kütləvi informasiya vasitələri məlumatlar yayıb. Belə ki, "RTL Today Radio", RTBF, 7SUR7, "Niewsblad" nəşrlərinin yaydığı materiallarda rəsmi Bakı və bir sıra dövlətlər tərəfindən terror aktının pislənildiyi vurğulanıb.

Misir, Əlcəzair, Səudiyyə Ərəbistanı, İordaniya, İraq, Sudan, Livan və digər ərəb ölkələrinin kütləvi informasiya vasitələrində ölkəmizin İrandakı səfirliyinə silahlı hücumla bağlı Azərbaycan icmasının bəyanatı yayılıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, bəyanatda bildirilib ki, ərəb ölkələrində yaşayan soydaşlarımız İrandakı səfirliyimizdə təşkil edilən terror aktını şiddətlə pisləyir.

Soydaşlarımızın terror aktı nəticəsində həlak olan səfirlik əməkdaşının xatirəsini ehtiramla andığı, regionda sülh və insanlıq əleyhinə yönələn cinayətlərə görə cavabdeh şəxslərin ən qısa zamanda məsuliyyətə cəlb olunmasını tələb etdiyi, beynəlxalq ictimaiyyətdən ədalətli mövqe gözlədiyi vurğulanıb.

Qeyd edək ki, yanvarın 27-də saat 08:30 radələrində Azərbaycanın Tehrandakı səfirliyinə terror hücumu nəticəsində səfirliyin mühafizə xidmətinin rəisi Orxan Əsgərov həlak olub, iki əməkdaşı yaralanıb. Terror aktını törədən şəxs səfirliyin mühafizə əməkdaşı tərəfindən zərərsizləşdirilib və o, İran polisi tərəfindən həbs olunub.

# YAP Veteranlar Şurasının iclası keçirilib

**Yanvarın 26-da Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının iclası keçirilib.**

YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə iclasın gündəliyi və müzakirəyə çıxarılan məsələlər barədə məlumat verib.

İclasda Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının 2022-ci il ərzindəki fəaliyyəti barədə hesabat dinlənilib. Daha sonra YAP Veteranlar Şurasının 2023-cü il üçün nəzərdə tutulan Tədbirlər Planı müzakirə olunub.

YAP Veteranlar Şurasının üzvləri - Zərifə Quliyeva, Əhliman Əmiraslanov, Ədalət Fərəcov, Adilə Abasova, Nazim İsmayılov, Şahlar Əsgərov, Tahir Məmmədov, Sədaqət Qəhrəmanova, Elman Məmmədov, Zahid Xəlil və Urxan Ələkbərov gündəlikdə duran məsələlərə münasibət bildiriblər. Müzakirələrdən sonra təkliflər və əlavələr nəzərə alınmaqla gündəliyə çıxarılan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.



# DAVOS İQTİSADİ FORUMU:

## Azərbaycanın nüfuzunun və iqtisadi gücünün dünyaya nümayişi!




## İLHAM ƏLİYEV: "Bizim siyasətimiz hər zaman əməkdaşlığa əsaslanıb"

Yanvarın 17-dən başlayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak edib. Yanvarın 21-dək davam edən Forumda dünyanın 130-dan çox ölkəsindən ümumilikdə 2700-dən çox nüfuzlu şəxs, o cümlədən 52 dövlət və hökumət başçısı iştirak edir. Bu da forumun beynəlxalq aləmdə bu toplantının nüfuzunun göstəricisidir. Prezident İlham Əliyev işgüzar və məhsuldar səfər çərçivəsində Niderlandın "Damen Shipyards Group" şirkətinin icraçı direktoru və səhmdarı Arnout Damen, "VTB Bank"ın prezidenti-idarə heyətinin sədri Andrey Kostin, Norveçin xarici işlər naziri Borge Brende, "Procter and Gamble Europe" şirkətinin Avropada satış və marketinq əməliyyatları üzrə prezidenti Gary Coombe, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Suma Chakrabarti, forumun icraçı sədri Klaus Schwab, "CISCO" şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrix, "Fortescue Future Industries" şirkətinin sədri Endrü Forest, "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen, "Signify" şirkətinin baş icraçı direktoru Erik Rondolat, "Carlsberg Group" şirkətinin prezidenti və baş icraçı direktoru Kes t`Hart, Litva prezidenti Gitanas Nauseda ilə görüşlər keçirib. Bir sözlə, keçirilən bu görüşlər dünyanın Azərbaycana və Prezident İlham Əliyevin siyasətinə artan marağından xəbər verir.Həmçinin, Çinin CGTN (China Global Television Network) televiziya kanalına geniş məzmunlu müsahibə verib.

Müsahibədə vurğulanıb ki, Çin və Azərbaycan yaxşı dostlardır, ölkələr arasında etibarlı münasibətlər vardır. Mütəmadi olaraq hər iki ölkənin dövlət başçıları arasında görüşlər təşkil olunur, münasibətlər günügündən möhkəmlənir. Ölkələrimiz arasında qarşılıqlı hörmət və etibarın göstəricidir ki, Çinin dövlət başçısı Si Cinpin ötən ilin payızında Pekində "Bir kəmər, bir yol" Sammiti çərçivəsində keçirilən toplantıda Prezident İlham Əliyevi "Çinin böyük dostu" adlandırıb. "Çin və Azərbaycan yaxşı dostlardır. Mənim Sədr Si Cinpinlə dəfələrlə görüşmək imkanım olub. Sonuncu dəfə bir neçə ay bundan öncə bizim çox yaxşı görüşümüz olub".Bu barədə Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində bildirib.Çin lideri ilə ötən ilin payızında beynəlxalq tədbirlərin birində görüşdükləri-ni xatırladan deyə dövlətimizin başçısı deyib: "Bizim gələcək əməkdaşlığımız haqqında çox məhsuldar müzakirələrimiz oldu. "Bir kəmər, bir yol" sammiti çərçivəsində Pekində Sədr Si Cinpinlə görüşüm zamanı o məni Çinin böyük dostu adlandırdı. Bu mənim üçün böyük şərəf idi".

### BİZ AZƏRBAYCANDA DAHA ÇOX ÇİN ŞİRKƏTİNİ GÖRMƏYƏ ÜMİD EDİRİK

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, son 30 il ərzində iki dövlət arasında əməkdaşlıq üçün çox möhkəm siyasi platforma qurulub və siyasi münasibətlər artıq bizim yaxşı tərəfdaş və bir-birinə etibar edən dostlar olduğumuzu nümayiş etdirir. Hər iki dövlət rəhbərləri və nümayəndə heyətlərinin iştirakı ilə keçirilən müxtəlif beynəlxaq toplantı və görüşlərdə ölkələrimiz həmişə bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyiblər: "Bizim beynəlxalq təsisatlar çərçivəsində çox yaxşı əməkdaşlığımız var. Biz həmişə bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Biz çox möhkəm siyasi platforma qurmuşuq. İndi isə biz bunun üzərində iqtisadi əməkdaşlığımızı qururuq. Bugünkü vəziyyətdə bu çox mühümdür, çünki yeni çağırışlar, yeni problemlər və yeni imkanlar var". Azərbaycanın Orta Dəhlizlə bağlı Sədr Si Cinpinin təşəbbüslərini tam dəstəklədiyini vurğulayan Prezident İlham Əliyev deyib ki, informasiya texnologiyaları sektorunu təmsil edən bir çox Çin şirkətləri ölkəmizdə uzun illərdir ki, fəaliyyət göstərir. Biz Azərbaycanda daha çox Çin şirkətini görməyə ümid edirik. Dövlət başçısı cənab İlham Əliyev öz müsahibəsində qeyd edib ki, hazırda Azərbaycanda investisiya mühiti çox müsbətdir. Xarici və yerli investisiyalar lazımınca qorunur. Hazırda ölkəmizə qoyulan sərmayələrin əksəriyyəti neft və qaz sektoruna yönəlmişdir. Lakin indi şaxələnmə istiqamətində hərəkət etmək vaxtıdır. Buna görə də qeyri-enerji sektoruna, infrastruktura, xüsusilə nəqliyyat infrastrukturuna, bərpaolunan enerji mənbələrinə yönəlmiş investisiyalar bizim üçün prioritetlərdən biridir: "Azərbaycanda investisiya mühiti çox müsbətdir, xarici və yerli investisiyalar lazımınca qorunur. Ümid edirik ki, qeyri-enerji sektoruna daha çox investisiyalar olacaq, çünki ölkəmizə qoyulan sərmayələrin əksəriyyəti neft və qaz sektoruna yönəlib". Ölkəmizin başçısı deyib ki, indi şaxələnmə barədə düşünmək və hərəkət etmək vaxtıdır: "Buna görə də qeyri-enerji sektoruna, infrastruktura, xüsusilə nəqliyyat infrastrukturuna, bərpa olunan enerji mənbələrinə yönəlmiş investisiyalar bizim üçün prioritetlərdən biridir. Biz indi Bakının yaxınlığında yerləşən Ələt bölgəsində azad iqtisadi zonanın açılmasının sonuncu mərhələsindəyik. Ümid edirik ki, Çin şirkətləri bu fürsətlərə diqqət yetirəcək. Əlbəttə ki, Şərq və Qərb arasında, ənənəvi İpək yolu coğrafiyasında yerləşməyimiz bizim üçün çoxlu imkanlar yaradır". "Azərbaycan çox böyük coğrafiyanı əhatə edən "Bir kəmər, bir yol" təşəbbüsünə ilk günlərdən fəal şəkildə qoşuldu və biz mövcud olmayan infrastruktura investisiya yatırmağa başladıq",-deyən Prezident İlham Əliyev, həmçinin son 10 il ərzində Xəzər dənizində ən böyük ticarət limanının inşa edildiyini deyib: "Son 10 il ərzində biz Xəzər dənizində ən böyük ticarət limanlarından birini, bəlkə də ən böyüyünü inşa etdik. Onun yükaşırma qabiliyyəti 15 milyon tondur və biz onu 25 milyon tona qədər artıracağıq. Biz Xəzər dənizi ilə yükləri daşımaq üçün gəmiqayırma zavodunu inşa etdik".

> **"Beynəlxalq ictimaiyyət Azərbaycanın dünyanın və Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynadığına bir daha əmin oldu"**

### ŞİMAL-QƏRB MARŞRUTU UĞURLA İNKİŞAF EDƏN QLOBAL LAYİHƏDİR

Azərbaycanın tranzit ölkə kimi imkanlarına gəldikdə dövlət başçısı bildirib ki, Şərq və Qərb arasında, ənənəvi İpək yolu coğrafiyasında yerləşməyimiz bizim üçün çoxlu imkanlar yaradır. Bu gün Bakının yaxınlığında yerləşən Ələt bölgəsində azad iqtisadi zonanın açılmasının sonuncu mərhələsi icra olunur. Ümid edirik ki, Çin şirkətləri bu fürsətlərə diqqət yetirəcəklər: "Biz əsasən dəmir yolu infrastrukturuna investisiya yatırdıq və bunu təkcə Azərbaycanda yox, regionda da etdik. İndi isə biz bu dəmir yolunu Bakıdan qərb istiqamətində genişləndirmək üçün əlavə sərmayə yatırırıq. Biz bütün digər layihələri - avtomagistrallar, hava limanları kimi layihələri də həyata keçirmişik".

Açıq dənizə çıxışı olmayan Azərbaycanın beynəlxalq, logistik və nəqliyyat mərkəzinə çevrildiyini qeyd edən dövlətimizin başçısı deyib: "Həmçinin "Bir kəmər, bir yol" təşəbbüsü müxtəlif marşrutlar, xüsusilə Şimal-Cənub marşrutu üzrə daşımanı fəallaşdırdı. İndi isə biz Şimal-Qərb marşrutu haqqında da danışırıq. Bu, uğurla inkişaf edən qlobal layihədir. Marşrut üzərində yerləşən bütün ölkələr artıq bunun faydasını görürlər. Əlbəttə ki, nəqliyyat layihələrinə necə münasibət göstərməsi ölkələrin strategiyasından asılıdır. Bizim üçün bu, iqtisadiyyatımızı şaxələndirmək və neft-qaz gəlirlərindən asılılığımızı azaltmaq üçün əsas amillərdən biri idi".Dövlət başçısı ötən il Azərbaycan ərazisindən tranzit daşımaların 75 faiz artdığını söyləyib:"Bu, təkcə infrastruktura görə yox, lazımi idarəetməyə görədir. Görülmüş tədbirlər bizə yükdaşımanı sürətləndirməyə, bürokratik əngəlləri aradan qaldırmağa və bunu fiziki olaraq cəlbedici etməyə imkan verir".Dövlətimizin başçısı qeyd edib ki, tarif siyasəti də mühüm məsələdir: "Çünki burada bir çox ölkələrin səylərinin birləşdirilməsi lazımdır ki, bizim razılaşdırılmış tarif siyasətimiz mövcud olsun və heç bir ölkə süni şəkildə öz mənfəətini artırmağa çalışmasın. Biz müştərək faydanı görməyi öyrənməliyik. Ərazimizdən nə qədər çox yük keçərsə, bizim bundan bir o qədər çox faydamız olar, bir o qədər də çox iş yerlərimiz olar".Həyata keçirilməsinə başlanılan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin Xəzər dənizinə istiqamətləndiyini bildirən Prezident İlham Əliyev deyib ki, bu, çox vacib əlavə təchizat marşrutudur və Orta Dəhlizin parlaq gələcəyi var.

### BİZ ÇİNLƏ ƏMƏKDAŞLIQ PORTFELİMİZƏ YAŞIL ENERJİNİ DƏ ƏLAVƏ ETMƏK İSTƏYİRİK

Prezident İlham Əliyev müsahibə zamanı Çinlə yaşıl enqerji sahəsində də əməkdaşlıq etməyi deyib: "Biz Çinlə əməkdaşlıq portfelimizə yaşıl enerji sahəsində əməkdaşlığı əlavə etmək istəyirik.

Təhlil

Çünki Azərbaycanda böyük potensial var və Çində böyük texnoloji nailiyyətlər mövcuddur. Biz bu səyləri birləşdirməliyik".”Bizim prioritetlərə gəldikdə, bərpaolunan enerji mənbələri bizim üçün indi əsas prioritetlərdən birinə çevrilib. Son bir neçə ay ərzində biz 22 qiqavat bərpaolunan enerji mənbələrini yaratmaq üçün sərmayə təmin edəcək sənədlər imzalamışıq. Söhbət həm dənizdən, həm də qurudan gedir. Bu isə regional iqtisadi konfiqurasiyanı tamamilə dəyişəcək", - deyə dövlətimizin başçısı bildirib. Prezident İlham Əliyev deyib ki, bunun təkcə bizim ölkə üçün yox, həm də bütün region üçün çox böyük potensialı var: ”Biz ixrac etmək imkanına malik olmaq üçün həm də ötürücü xətlərə də sərmayə yatırmalıyıq, çünki bizim özümüzə bu qədər enerji lazım deyil".






## ÇİNİN QLOBAL ARENADA GÖRDÜYÜ İŞLƏR YÜKSƏK QİYMƏTLƏNDİRİLMƏLİDİR

Azərbaycan Prezidenti Çinin gördüyü işləri də beynəlxalq ictimaiyyət görürü və yüksək dəyərləndirir: ”Sizə səmimi deyə bilərəm ki, dəstək və əməkdaşlıqla bağlı qlobal arenada Çinin gördüyü işlər beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməlidir.AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində deyib.”Siz (Çin-red.) bunu qlobal miqyasda edirsiniz. Biz isə bunu daha çox regional miqyasda edirik. Ancaq bizim fəlsəfəmiz eynidir və uğurludur. Baxın, Çin dünyada ən çox uğur qazanmış ölkələrdəndir və dünyanın aparıcı iqtisadiyyatlarındandır. Siz buna öz əməyiniz, xalqınızın və ölkə rəhbərliyinin müdrikliyi və nəticəyönümlü səyləriniz sayəsində nail olmusunuz", - deyə dövlətimizin başçısı qeyd edib.

## AZƏRBAYCAN KİMİ ÖLKƏ ÜÇÜN ÇİNDƏ İQTİSADİ ARTIM OLDUQCA VACİBDİR

”Çin iqtisadiyyatı təkcə ölkənizlə məhdudlaşmır. Onun qlobal iqtisadiyyata təsiri var və bir çox analitik təsisatların proqnozları Çin iqtisadiyyatının inkişaf proqnozlarına əsaslanır. Bu, bir məsuliyyətdir və hökumətiniz bu qlobal məsuliyyəti dərk edir",-deyən dövlətimizin başçısı Çinin iqtisadi inkişafa və islahatlara sadiqliyini, dünyaya daha da açıq olmasına dair sarsılmaz əzmini qiymətləndirən dövlətimizin başçısı deyib: ”Ölkənizin yüksəkrütbəli rəsmisi Davosda belə bəyanatla çıxış edirsə, bu, dünya iqtisadiyyatı, bütün ölkələr, o cümlədən bizim ölkə üçün də çox yaxşı siqnaldır. Azərbaycan kimi ölkə üçün Çində iqtisadi artım olduqca vacibdir".Azərbaycan Prezidenti qeyd edib ki, Çin onilliklər ərzində müəyyən edilmiş hədəflərə müntəzəm surətdə nail olub, onun iqtisadi göstəriciləri qlobal iqtisadiyyata və bir çox ölkələrə ciddi dərəcədə təsir edir.Azərbaycan Prezidenti, həmçinin müsahibsi zamanı çinli dostlarımızı Çin təqvimi üzrə Yeni il münasibətilə təbrik edib: ”Mən çinli dostlarımızı Çin təqvimi üzrə Yeni il münasibətilə təbrik etmək istəyirəm. Bütün Çin xalqına sülh, firavanlıq və uğur diləyirəm. Azərbaycan olaraq biz sizin dostunuz və tərəfdaşınızıq" Dövlətimizin başçısı deyib: ”Bizim uzun illərdir ki, çox yaxşı münasibətlərimiz var. Biz sizin ölkənizi sevirik və şadıq ki, getdikcə daha çox azərbaycanlı Çinə səfər edir. Bununla yanaşı, Çindən gələnlərin də sayı artır. İnsanlar arasında təmaslar daha sıx siyasi münasibətlərin qurulmasında vacib rol oynayır. Əminəm ki, Çin özünün iqtisadi və sosial inkişafında uğurlar əldə etməyə davam edəcək və bizi birləşdirəcək Orta Dəhliz layihəsi uğurla həyata keçiriləcək".

## MƏNİM AZƏRBAYCAN CƏMİYYƏTİ İLƏ ÇOX AÇIQ KOMMUNİKASİYA KANALIM VAR

Sözü imzası qədər qüvvətli və dəyərli olduğunu müsahibəsi zamanı da bir daha vurğuladı: ”Siyasi həyatımda heç vaxt olmayıb ki, mən söz verim və arxasında dayanmayım. Verdiyim bütün sözlər yerinə yetirilib. Digər tərəfdən, mən çox söz vermirəm, çünki nəticəni nümayiş etdirməyi üstün tuturam".”Biz yalan vədlərə əsaslanan çox sayda siyasi və ya seçki kampaniyaları görmüşük. Lakin bu, uğura gətirib çıxarmayıb, uğur yalnız müvəqqəti olub. Çünki insanlar hər şeyi çox yaxşı başa düşürlər. Onlar yadda saxlayırlar. Əgər siz vəd verib yerinə yetirməmisinizsə onlar sizi dəstəkləməyəcəklər. Mən hər zaman görülmüş işi nümayiş etdirməyi üstün tuturam və hər zaman planlarımızla bağlı insanlarla məsləhətləşirəm. Mənim Azərbaycan cəmiyyəti ilə çox açıq kommunikasiya kanalım va", - deyə dövlətimizin başçısı vurğulayıb.

## BAŞLADIĞIMIZ BÜTÜN PROQRAMLARIN HAMISI İCRA OLUNUB

”Mən hər il regionlara təxminən 30-40 səfər edirəm və insanları hansı problemlərin narahat etdiyi, nələrin həll edilməli olması ilə, nə etməli olduğumuzla maraqlanıram. Bu, enerji təhlükəsizliyi, nəqliyyat kimi qlobal layihələrin bir hissəsidir, insanların gündəlik həyatıdır".Bu barədə Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində bildirib.İnsanların daha yaxşı yaşamalarını təmin etmək üçün müxtəlif alətlərin olduğunu qeyd edən Azərbaycan Prezidenti deyib: ”İlk növbədə, siz xalqınızla dürüst davranmalısınız və onda onlar sizi dəstəkləyəcəklər, sizə etibar edəcəklər. Başladığımız bütün proqramlarımıza gəlincə, onların hamısı icra olunub. Azərbaycanda heç kim deyə və sonra da sübut edə bilməz ki, nə vaxtsa proqram qəbul olunub, sonra isə icra olunmayıb".Dövlətimizin başçısı əlavə edib ki, 20 illik prezidentliyi dövründə söylədiyi hər bir sözə görə məsuliyyət daşıya bilər: ”Millətimizin əldə etdiyi ən böyük nəticələrdən biri işğal altındakı ərazilərin iki il əvvəl azad edilməsi oldu. Bu, həm də tarixi nailiyyət idi, bəlkə də ən mühüm tarixi nailiyyət".

## BİZ ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ GEDƏN YOLUN BAŞLANĞICINDA YAXŞI SƏRMAYƏ MÜHİTİ YARATMIŞIQ

Prezident İlham Əliyev müsahibə zamanı enerji təhlükəsizliyinə gedən yolun başlanğıcında yaxşı sərmayə mühiti yaradıldığını deyərək bu sahədə çoxmilyardlı investisiyalar cəlb etməyə nail olunduğunu vurğulayıb: ”Biz enerji təhlükəsizliyinə gedən yolun başlanğıcında yaxşı sərmayə mühiti yaratmışıq və hətta ixrac marşrutlarına malik olmadan neft-qaz sahəsinə çoxmilyardlı investisiyalar cəlb etməyə nail olmuşuq".”Mən enerji siyasətimizdə hər zaman demişəm ki, Azərbaycan istehsalçı olaraq tranzit dövlətlər və istehlakçılar arasında balansı qoruyacaq. Balans olmasa, bu iş uğursuz olacaq. Enerji prosesinin hər bir hissəsinin sözsüz ki, töhfədən asılı olaraq öz mənfəət payı olmalıdır, bu, ədalətli olmalıdır. Biz hər zaman ədalətli olmuşuq. Ona görə də, biz iki il bundan əvvəl Bakıdan Cənubi Avropaya gedən 3500 kilometr uzunluğunda Cənub Qaz Dəhlizinin tikintisini tamamladıq", - deyə dövlətimizin başçısı qeyd edib.Azərbaycan Prezidenti vurğulayıb ki, Cənub Qaz Dəhlizi 7 ölkəni, 10-dan çox şirkəti, aparıcı maliyyə institutlarını - Dünya Bankını, Avropa Yenidənqurma və İnkişaf Bankını, Asiya İnfrastruktur və İnvestisiya Bankını, Avropa İnvestisiya Bankını və Asiya İnkişaf Bankını əhatə edən texniki cəhətdən çox mürəkkəb və çox bahalı layihədir.

## AZƏRBAYCANIN HƏDƏFİ AVROPA BAZARINA QAZ İXRACINI İKİ DƏFƏ ARTIRMAQDIR

”Biz komanda işini qurmağa nail olduq. İndi - bütün bu infrastruktur layihələrinin hazır olduğu bir vaxtda belə alındı ki, bizim qazımıza indiyədək olduğundan daha çox ehtiyac var. Bizim Avropaya kəmərimiz enerji təhlükəsizliyinə töhfənin elementlərindən biridir",-deyən dövlətimizin başçısı bildiriib ki, ötən il Azərbaycan Avropa bazarına qaz ixracını iki dəfə artırmaq üçün Avropa Komissiyası ilə sənəd imzalanıb: ”Biz 5 il ərzində bu hədəfə nail olacağıq, bu, mümkündür, baxmayaraq ki, asan olmayacaq. Azərbaycan sözsüz ki, təbii qazın çox böyük təchizatçısı deyil, lakin bizim Şərqi və Cənubi Avropada bazarımız var və gələcəkdə daha çox qaz hasil etdikcə, coğrafiyamızı genişləndirəcəyik".

## BİZİM SİYASƏTİMİZ HƏR ZAMAN ƏMƏKDAŞLIĞA ƏSASLANIB

”Düşünürəm ki, bəzi ölkələrin ambisiyaları, regionda və ya dünyada bir növ liderlik uğrunda mübarizə, potensialın düzgün hesablanmaması, opponentinizin olduğundan aşağı qiymətləndirilməsi əməkdaşlığı çətinləşdirir",- deyən dövlətimizin başçısı bunun etimadsızlığa, gərginliyə və müharibələrə gətirib çıxardığını qeyd edib: ”Bizim siyasətimiz hər zaman, sözün əsl mənasında, əməkdaşlığa əsaslanıb, çünki biz qəti surətdə inanırıq ki, yalnız əməkdaşlıq sayəsində uğur qazana bilərsiniz. Nə qədər çox versəniz, nə qədər çox yardım etsəniz, bir o qədər çox əldə edəcəksiniz. Dünya bunun üzərində qurulub".Dövlətimizin başçısı müxbirin müvafiq sualına cavab verərkən buna daha bir misal olaraq Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi səylərini göstərib: ”Azərbaycan artıq dördüncü ildir ki, Qoşulmama Hərəkatına sədrlik edir. Biz yekdilliklə seçilmişik və bizim sədrliyimiz yekdilliklə daha bir il müddətinə, bu ilin sonuna kimi uzadılıb. Bu müddət ərzində biz həqiqətən də nümayiş etdirdik ki, bu hərəkatın səsinin eşidilməyini istəyirik, biz bu hərəkatın dünya arenasında öz yerini tutmağını istəyirik".Dövlətimizin başçısı pandemiya dövrünə də toxunaraq deyib ki, Azərbaycan həmin ağır illərdə 80-dən artıq ölkəyə tibbi, humanitar və maliyyə dəstəyi göstərib: ”Azərbaycan pandemiya dövründə 80-dən artıq ölkəyə tibbi, humanitar və maliyyə dəstəyi göstərib. Biz bunu könüllü olaraq, hər hansı təmənna güdmədən etdik. Biz, sadəcə, hesab etdik ki, bizim belə imkanımız varsa, bunu etməliyik".Bu barədə Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində bildirib.”1990-cı illərin əvvəllərində elə dönəm var idi ki, ölkəmizin köməyə ehtiyacı olub. O zaman ölkəmiz yoxsul idi və bir çox sosial problemlərlə üzləşmişdi. Yəni, bir kasıblığın nə olduğunu yaxşı bildiyimiz üçün kömək əlimizi uzatdıq. Bu ideologiya üstünlük təşkil etsə, dünya daha təhlükəsiz olar", - deyə dövlətimizin başçısı vurğulayıb.Prezident İlham Əliyev qeyd edib ki, bu gün dünyanın üzləşdiyi əsas problemin legitim mənbəyi yoxdur, bunlar, sadəcə, baxışlar, ambisiyalar və virtual liderlik uğrunda mübarizə ilə bağlıdır.

Beləliklə, son Davos Forumunu da Azərbaycan üçün uğurlu saymaq olar. Beynəlxalq ictimaiyyət Azərbaycanın dünyanın və Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynadığına bir daha əmin oldu. Bu isə o deməkdir ki, Azərbaycanın artan nüfuzu, regionda söz sahibi olması və qüdrətlənməsi dünyanın aparıcı siyasi və iqtisadi dairələri tərəfindən birmənalı təsdiq edilir.

***RƏFİQƏ KAMALQIZI***

# Gender balansının təmin olunması istiqamətində uğurlu nəricələr var



***İctimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadınların bərabərliyini nəzərdə tutan məhz gender bərabərliyidir. Ölkəmizdə gender ənənəsi hələ ötən əsrin əvvəllərində bütün dünyanın diqqətini cəlb etmişdi. Belə ki, ötən əsrin əvvəllərindən Azərbaycan qadınının savadlanması, ictimai həyata qarışması gender bərabərliyindən xəbər verirdi. Halbuki, inkişaf etmiş ölkələr həmin dövrdə hələ gender bərabərliyi məsələlərində Azərbaycandan geri qalırdı və əksəriyyətində qadın hüquqları ölkəmizdəki qədər deyildi.***

Şərqdə yaradılan ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyəti həm Şərqdə, həm də ümumuyyətlə islam aləmində qadına seçmək və seçilmək hüququ verən ilk respublika olaraq yadda qalıb. Ölkəmizdə həmin dövrdə başlayaraq qadınların kişilərlə bərabər azadlığı, hüququ göz önündə olub. Doğrudur, Sovet hakimiyyəti illərində qadın hüquqlarına, gender bərabərliyinə həmin dövrün, həmin o hakimiyyətin müxtəlif mənfi təsirləri olub və qadının potensialının ortaya qoyulmasıba həmin dövrün ideologiyası mənfi təsir edib. Amma etiraf edək ki, Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra qadınların ictimai həyatda rolunun artmasına tam şəkildə şərait yaradılıb. Məhz müstəqilliyimiz bərpa edildikdən sonra bu istiqamətdə ölkədə dövlət səviyyəsində bir sıra qanun və qərarlar qəbul edilib, hətta Azərbaycan konstitusiyası kişilərə və qadınlara eyni hüquqları verib.

BMT-nin "Qadınlara Qarşı Ayrı-Seçkiliyin bütün növ formalarının ləğv edilməsi haqqında" Konvensiyanı Azərbaycan 1995-ci ildə ratifikasiya edib. Daha sonra, yəni 1998-ci ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Qadın Problemləri üzrə




Dövlət Komitəsinin, indiki Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" sərəncamların imzalanması da gender bərabərliyinə öz töhfəsini verib. Ulu Öndərin "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" 2000-ci ildə imzaladığı fərman bütün dövlət strukturlarında qadınların təmsil olunma faizinin yüksəldilməsini nəzərdə tuturdu. Qeyd edək ki, nazirlik və idarələrdə gender siyasətinə məsul koordinatorların-fokal mərkəzlərin fəaliyyət göstərməsi ölkəmizdə gender siyasətinin uğurla aparıldığını və bu istiqamətdə əldə edilən nəticələtin qənaətbəxş olduğu demək idi.



"Gender bərabərliyinin təminatları haqqında" qanunun 2006-cı ildə qəbul edilməsi ölkəmizdə cinsi mənsubiyyətə görə hər cür ayrı-seçkiliyi qadağan etdi. Azərbaycan qadınları halhazırda dövlət və özünüidarətmə orqanlarında, özəl sektorda yüksək postlarda çalışırlar, uğurlu nəticələr göstərirlər ki, bu da ayrı-seçkiliyin qadağan edilməsinin məntiqi nəticəsidir. Faktlar göz önündədir. Milli Məclisdə belə qadın millət vəkilləri təmsil olunurlarsa, deməli, ölkəmizdə hansısa ayrı-seçkilikdən söhbət belə gedə bilməz. Bu gün dövlət idarəçiliyində, nazirliklərdə, güc strukturlarında ən məsul vəzifələrdə qadınlar çalışırlarsa, bu o deməkdir ki, Azərbaycan qadını üçün heç bir qadağa, manеə yoxdur. Həmin o sadalanan qurumlarda təmsil olunan qadınların öz işinin öhdəsindən layiqincə gəlməsi özü isə qadınlar üçün yaradılam şəraitin müsbət nəricələr verdiyindən, uğurlu nəticələrdən xəbər verir.

Ölkəmizdə uğurlu şəkildə gender siyasətinin aparıldığı təkzib edilə bilməz və bu məsələ, bu sahə dövlətimizin daim diqqət mərkəzindədir. Bununla əlaqədar xüsusi Dövlət Proqramının qəbul olunması deyilənləri təsdiq edir. Azərbaycanda qadın hüquqlarının təmin olunmasına, onların cəmiyyətdə və dövlət idarəçiliyində rolunun artmasına yönəlmiş siyasət Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir və əldə edilən nəticələrə baxdığımız zaman bunun şahidi oluruq. Ölkəmizdə qadınların hüquqlarının ən yüksək səviyyədə qorunması, cəmiyyətin həyatında onların fəal rol oynaması üçün yetərincə siyasi iradə və mükəmməl hüquqi baza da mövcuddur. Həmin o hüqiqi baza, milli qanunvericilik qadınların hüquqi bəranərliyini təmin etmək, hər cür ayrı-seçkiliyin qarşısının alınması üçündür və bu baza bütün ayrı-seçkiliklərin qarşısının alınmasına xidmət edir. Qadınların hüquqlarının ən yüksək səviyyədə qorunması üçün Azərbaycan bu gün gender bərabərliyi üzrə bir sıra beynəlxalq sənədlərə də qoşulub, beynəlxalq təşkilatlarla uğurla əməkdaşlıq da edir. Bu çox sevindirici haldır və görürük ki, qadınlara qarşı hər cür zorakılıq hallarına görə kəskin mübarizə də aparılır, hansı ki, bu mübrizənin aparılması dövlətin prioritetlərindəndir.

Azərbaycanda dövlət quruculuğu, ictimai fəaliyyət sahəsində qadınların və kişilərin bərabər hüquqa malik olduğunu, bərabər imkanlar əldə etdiyini hər birimiz çox yaxşı görürük. Görürük ki, hazırda cəmiyyətdə iştirak və dövlət quruculuğu təmsilçiliyində qadınlarla kişilər arasında heç bir fərq yoxdur. Deməli, ölkəmizdə gender balansının təmin olunması istiqamətində uğurlu nəricələr var və əgər bu balans yenə də saxlanılırsa, qorunursa, gələcəkdə gender bərabərliyi istiqamətində daha uğurlu nəticələrin şahidi olacağıq.

***İnam Hacıyev***



Mətanət Məmmədova

# Bəri bax...

***Biz görəsən mahnılarımızın, musiqilərimizin başına nə üçün bu oyunları açırıq? Nədir onların günahı? Budur ki, illər, əsrlərdir, bizim nə qədər böyük mədəniyyətə malik bir xalq olduğumuzu təsdiqləyiblərmi? Belə isə nə istəyirik onlardan? Nə üçün qoymuruq öz gözəl ritmlərində, öz bənzərsiz donlarında qalsınlar...***

İki gündən bir ya ritmlərini dəyişdiririk, ya sözlərini ixtisar edirik, nə isə, bir də baxırsan ki, filan müğənninin yeni mahnısı təqdim olunub. Dinləyirsən ki, yox, yeni-zad deyil. Köhnə xalq mahnılarımızdan biridir, sadəcə ritmini dəyişdirib yeni mahnı adı ilə təqdim edib. Yüzlərlə belə mahnılarımız var ki, onun orijinal vəziyyətindən əsər-əlamət qalmayıb. Tamamilə "müasirləşdirilib".

Elə bu günlər müğənni Damlanın yeni mahnısı "Bəri bax" kimi... Əslində bu xalq mahnısının adı "Ay bəri bax"dır. "Ay" sözü ixtisar olunub, atılıb bir kənara. Böyük qəbahətdir. Bu, bir.

İkincisi, uzun illərdən bəri xalq mahnısı kimi dinlədiyimiz və yaddaşlarımıza köçürdüyümüz mahnının ritmini dəyişdirib qulaqlarımıza tamamilə yad bir formaya salıblar. Həm də Damla xanım sanki mahnı oxumur, şeir söyləyir.

Üçüncüsü, mahnı "Bəri bax" kimi təqdim olunsa da, oxunsa da, arada "Səkinə dayqızı lay-lay"a keçid alır və yenidən "Bəri bax"a qayıdır. Həm popuri kimi bir şey, həm də yox...

Bəlkə də məni qınayan olar ki, get işinlə məşğul ol, bunu anlamaq üçün musiqi təhsilin olmalıdır. Lakin vallah, illərlə dinlədiyimiz bir mahnıya yamaq o qədər diqqəti cəlb edir ki, buna təhsil-zad lazım deyil.

Dördüncüsü, mahnıda aradabir qarışıq bir səs-küy də eşidilir ki, bunu da əsla anlamadım. Anladığım budur ki, bizim xalq mahnımız birincisi, öz məhvərindən çıxarılıb bu cür anlaşılmayan, xalq mahnısına layiq olmayan ritmə salınıb.

İkincisi, gəlin bir xarici ölkələrə - ingilisə, almana, rusa, nə bilim kimə aid bir mahnı göstərin ki, o mahnıda aradabir Azərbaycan dilində bir kəlmə keçsin. Sizi bilmirəm, mən rast gəlməmişəm.

Üçüncüsü isə, vallah, belə olanda, şair demişkən, dəli bir ağlamaq keçir könlümdən. Nə üçün keçir?

Çünki bizim borcumuzdur ki, xalq mahnılarımızı, rəqslərimizi, oyunlarımızı, adət-ənənələrimizi olduğu kimi qoruyub bu günlərə gətirək ki, bu gündən də gələcək nəsillərə ötürə bilək.

Maraqlıdır, deyilmi? Hərəmiz mahnılarımıza bir ritm, bir söz, rəqslərimizə bir addım, bir jest, oyunlarımıza bir "müasirlik", adət-ənənələrimizə bir yenilik artıraraqsa, bir neçə ildən sonra onlardan nə qalar ortalıqda? Hə, bax, belə olanda, elə bu yeni mahnıda deyildiyi kimi bəri baxa bilməyəcəyik. Çox uzaqlara baxmış olacağıq və mahnılarımızın, musiqilərimizin, rəqslərimizin, oyunlarımızın, adət-ənənələrimizin çox uzaqda qaldığını görəcəyik.

Hə, onu da görəcəyik ki, bizim unutduqlarımızı və unutdurduqlarımızı kənardan hop götürüb adlarına çıxıb orijinalda olduğu kimi oxuyurlar. Belə olanda da yanıb-yaxılacağıq, qələmi əlimizə götürüb başlayacağıq yazmağa ki, yox, bu, belə deyil.

Lakin bu qələm ki var, onu vaxtında ələ götürüb mahnılarımızı düşdüyü yeni dünyadan xilas etsək, uşaq-muşağın məşhurlaşmaq məqsədilə küçələrdə oynadığı yalnış rəqslərimizi xilas edə bilsək, musiqilərimizə əlavə edilən xaric notaların qarşısını ala bilsək, oyunlarımızın təhrif olunmuş hissələrinə münasibət bildirsək, adət-ənənələrimizi dünənki kimi yaşatmağa çalışsaq, yaxın gələcəkdə heç bir problemlə qarşılaşmarıq. Və həm də gələcək nəsillər qarşısında hesabatımız dövründə başımızı aşağı dikmərik.

Yazıqdır bu mahnılarımız. Gəlin onları bu kökə salmayaq. Mahnılarımızı elə oxuyaq, elə təqdim edək ki, dinləyici həqiqətən də "Bəri bax"sın, üzünü çevirib, qulaqlarını tutub başqa səmtə baxmasın.

# Rifah və firavanlığa - SON BEŞ İLDƏ DÖRDÜNCÜ SOSİAL İSLAHATLAR PAKETİ





*İlham Əliyev: "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik"*

Dövrün tələbinə uyğun olaraq həyata keçirilən siyasi islahatlar, icra edilən iqtisadi proqram və sərəncamlar ölkəmizin nüfuzunun sərhədlərini genişləndirməklə bərabər, insan amilinin də inkişafına güclü təkan verib. Azərbaycan öz daxili siyasətində insan amilinə xüsusi diqqət yetirməklə həm iqtisadi, həm sosial, həm də siyasi proseslərdə önəmli mövqe qazanıb. Cənab Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycanda dövlət siyasətinin prioritetini insanların yüksək rifah və firavan yaşaması təşkil edir. Bu, demək olar ki, müasir Azərbaycan dövlətinin siyasətinin əsas xəttini təşkil edir. Ölkə başçısı hər bir addımında, verdiyi bütün qərarlarda ilk olaraq, məhz insanları düşünür. "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır", - deyən Prezident İlham Əliyev əməli fəaliyyətində bunu göstərir. Əlbəttə, Azərbaycan dövləti, Azərbaycan Prezidenti hər zaman öz vətəndaşının yanındadır, onun firavan yaşayışını, təhlükəsiz həyatını təmin etmək gücündədir. Dövlətimizin gücünü, qüdrətini hər bir Azərbaycan vətəndaşı duyur, dərk edir və bu, onlar üçün qürurvericidir. Hər bir Azərbaycan vətəndaşı ölkənin sosial-iqtisadi inkişafının dinamik xarakter aldığını, hər yerdə genişmiqyaslı quruculuq-abadlıq işlərinin aparıldığının şahidi olurlar. Çoxlu sayda sosial obyektlər istifadəyə verilir, yol infrastrukturu yenilənir, zavodlar, fabriklər tikilir, iş yerləri açılır, maaş və müavinətlər dəfələrlə artırılıb, əhalinin yaşayış səviyyəsi durmadan yaxşılaşır. Bu, Cənab Prezidentin uğurlu daxili siyasətinin məntiqidir. Əlbəttə ki, dövlətin öz vətəndaşının yanında olması bütün çətinliklərin aradan qaldırılmasında önəmlidir.

### SOSİAL MÜDAFİƏNİN GÜCLƏNDİRİLMƏSİNDƏ ZƏRURİ TƏDBİRLƏR

Vətəndaşların yaşayış səviyyəsinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatların məntiqi nəticəsi olaraq Azərbaycan Prezidentinin məlum sərəncamları ilə insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilib. "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik", - deyən Azərbaycan Prezidenti bu yaxınlarda imzaladığı Fərman və Sərəncamlarla müavinət və təqaüdlərin, bir sıra təşkilatlarda çalışanların əməkhaqlarının artırılması həyata keçirilən islahatların davamı, dövlət başçısını sözü ilə əməlinin vəhdətdə oluğunun təzahürüdür. Dövlət başçısının yeni Fərman və Sərəncamları ilə son beş ildə ölkəmizdə artıq dördüncü sosial islahat paketi reallaşdırılaraq əməkhaqqı, müavinət və təqaüdlərin növbəti dəfə artırılması təmin olunur. Yeni Sərəncamla dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışanların aylıq vəzifə maaşlarının 2023-cü il yanvarın 1-dən orta hesabla 15 faiz artırılıb.

### MÜHARİBƏ YAŞAMIŞ ÖLKƏLƏR ARASINDA AZƏRBAYCANIN YENİLİYİ

Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyəti, o cümlədən müharibə əlilləri və şəhid ailələrini əhatə edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birini, məhz müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Vurğulamaq yerinə düşər ki, Ulu Öndərin təşəbbüsü ilə "Şəhid adının əbədiləşdirilməsi haqqında" qanun qəbul olunmuşdu və bu qanun, məhz Heydər Əliyevin 1993-cü il tarixli Fərmanı ilə təsdiq edilmişdi. Bu gün Ulu Öndərin siyasi kursunu Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. 2003-cü ildən bu günə kimi, görülən işlər bunu sübut edir. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşılır, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin 2018-ci il 19 aprel tarixli Fərmanı ilə şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi həssas qrupların sosial müdafiəsinin gücləndirilməsində mühüm addımlardan biri idi. 2019-cu il 28 yanvar tarixli Fərman isə, birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Beləliklə, hər iki Fərmanın icrasının nəticəsi olaraq, 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi üçün dövlət büdcəsindən 135 milyon manat vəsait ayrıldı. "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 15 aprel 2019-cu il tarixli Fərmanda isə müharibə veteranlarına Prezidentin aylıq 80 manat məbləğində təqaüdü təsis olundu.



Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət, pensiya ilə yanaşı Prezident təqaüdü verilir. Cənab Prezidentin göstərişi ilə şəhid ailələri mənzillə təmin olunur. Azərbaycan Prezidentinin 2014-cü il 20 iyun tarixli Sərəncamı müharibə əlilləri və şəhid ailələrinin dövlət tərəfindən mənzillə təminatı işlərinin sürətlənməsinə şərait yaradıb. "Keçən il bu istiqamətdə də önəmli addımlar atılmışdır, bu kateqoriyadan olan 1500 ailəyə dövlət tərəfindən mənzillər verildi" - deyən Cənab Prezident bildirib ki, 2021-ci ildə isə 3 min mənzil verildi: "Bu il də ən azı 1500 mənzil veriləcək. Beləliklə, hələ növbədə duran bu kateqoriyadan olan insanların hamısına dövlət tərəfindən mənzillər veriləcək. Məlumat üçün deyə bilərəm ki, bu günə qədər 13 min ailə bu imkanlardan faydalanıb. Bu da müharibə yaşamış ölkələr arasında, belə demək mümkündürsə, bir bizim yeniliyimizdir. Çünki bir çox ölkələrdə belə praktika yoxdur. Biz bunu nə üçün edirik? Çünki bu, o ailələr qarşısında bizim mənəvi borcumuzdur və bu borcu imkan daxilində yerinə yetirməyə çalışırıq".

### "İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ ƏLİL OLMUŞ 379 HƏRBÇİ ƏN MÜASİR PROTEZLƏRLƏ TƏMİN EDİLİB"

2023-cü ilin 1 yanvarından Prezidentin aylıq təqaüdü şəhid ailəsi üçün 600 manata çatdırılıb. Həmçinin əlilliyi olan şəxslərə yönələn həm müavinətlər, həm də təqaüdlər artırılıb. Belə ki, Prezidentin aylıq təqaüdü müharibə, 20 Yanvar, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər üçün orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 500 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 400 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 330 manata çatdırılmaqla bərabər, digər tərəfdən bütün kateqoriyalara aid əlilliyi olan şəxslər üçün müavinət də orqanizmin funksiyalarının 81-100 faiz, 61-80 faiz və 31-60 faiz pozulmasına görə müvafiq olaraq 270 manata, 220 manata və 150 manata çatdırılıb. Eləcə də ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslər üçün Prezidentin aylıq təqaüdü 300 manata, bu kateqoriyadan olan digər şəxslər üçün isə 200 manata çatdırılıb. Eyni zamanda, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə və 18 yaşınadək əlilliyi olan şəxslərə qulluq edənlərə Prezidentin aylıq təqaüdü də artırılaraq 100 manat müəyyən olunub. Göründüyü kimi, əlilliyi olan şəxslər üzrə həm müavinətlər, həm təqaüdlərin artırılması təmin edilib. Bütün bunlarla yanaşı, İkinci Qarabağ müharibəsində əlil olmuş 379 hərbçi ən müasir protezlərlə təmin edilib. "Cəmi iki il keçməsinə baxmayaraq, İkinci Qarabağ müharibəsinə aid olan bu proqram tam yerinə yetirilib. Bu proqramın icrası mətbuatda da işıqlandırılıb. Hər kəs görə bilir ki, bizim qazilərimiz hətta futbol oynaya bilirlər. Əl protezləri daha mürəkkəb texnologiyaya malikdir. Mənə verilən məlumata görə, ən müasir texnologiyadan olan əl protezlərinin əl tutma funksiyası təqribən 40-a çatır. Yəni, biz öz sağlamlığını itirmiş soydaşlarımıza maksimum dərəcədə kömək göstərməyə çalışırıq" - deyə Cənab Prezident bildirmişdir. Bütün bunlar əlbəttə ki, Azərbaycanın sosialyönümlü ölkə olduğunun isbatıdır.

### SOSİAL İSLAHATLAR PAKETİ VƏ NƏTİCƏLƏR

Həyata keçirilən sosial islahatlar paketinə 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına Prezidentin aylıq təqaüdünün 330, elmi dərəcəsi olan, işləməyən pensiyaçılara Prezidentin aylıq təqaüdünün elmlər doktorları üçün 500, fəlsəfə doktorları üçün 300, yaşa görə müavinətin 220 manata çatdırıldığı da daxil edilib. Eləcə də Prezidentin fərdi təqaüdünün 1500, ailə başçısını itirməyə görə müavinətin (hər ailə üzvü üçün) 120, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə (ünvanlı sosial yardım alan) hər uşağa görə müavinətin 100, beşdən çox uşağı olan qadınlara hər uşağa görə müavinətin 105-ə çatdırılması insanların rifahını yüksəldilməsində əhəmiyyətli göstəricilərdir. Son 5 ildə icra olunan 4 sosial islahat paketi nəticəsində əlilliyi olan şəxslər üçün müavinət və təqaüdlər orta hesabla 3 dəfə, aztəminatlı ailələrdə bir yaşınadək uşağa görə müavinət 2,1 dəfə, uşağın anadan olmasına görə birdəfəlik müavinət 4,6 dəfə, dəfn üçün birdəfəlik müavinət 3,4 dəfə, ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü 2 dəfə, yaşa görə müavinət 3 dəfə, beşdən çox uşağı olan qadınlara hər uşağa görə müavinət 3,2 dəfə, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən olunmuş şəxslərə qulluq edən şəxslərə Prezidentin aylıq təqaüdü 2 dəfə, ailə başçısını itirməyə görə müavinət 76,5 faiz artırılıb. Yeni Fərman və Sərəncamlarla ümumilikdə 660 min nəfərə yönələn sosial müavinət və təqaüdlərin artırılması təmin edilir. Həmçinin, tələbə və doktorantların təqaüdlərinin də artırılması da təqdirəlayiqdir. Ümumilikdə 2023-cü ildə yeni sosial islahat paketi üzrə 1,9 milyon vətəndaşı əhatə edən sosial ödənişlərdə növbəti artımlar edilib və bunun üçün illik əlavə 750 milyon manat vəsait nəzərdə tutulub. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşlarının rifahı və mənafeyi dayanır. Görülən işlər bir daha təsdiqləyir ki, Azərbaycan dövləti hər zaman öz vətəndaşının yanındadır.

**Zümrüd BAYRAMOVA**

# Erməni faşist ideologiyası: terror aktları

## *İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə zidd qanlı cinayətlər*




***Müasir dövrün ən təhlükəli təzahürlərdən biri olan terrorizmin acı nəticələrini hələ də dünyamız yaşamaqdadır. İnsan tələfatları ilə nəticələnən və güclü psixoloji gərginliklər yaşadan terrorizm siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır.***





Azərbaycan da terrordan əziyyət çəkən dövlətlər sırasındadır. Zaman-zaman Azərbaycan qarşı ermənilər tərəfindən terror aktları törədilmiş və bunun acı nəticələrini yaşamışıq. 23 il bundan əvvəl tarixin bu günündə 1992-ci il yanvarın 28-də Ağdamdan Şuşaya uçan "Mİ-8" mülki helikopterinin erməni terrorçuları tərəfindən Xankəndi istiqamətindən qumbaraatanla vurulması terrorun acı nəticəsidir. Terror hadisəsi Şuşanın Xəlfəli kəndi yaxınlığında baş vermiş, hadisə nəticəsində əksəriyyəti qadın və uşaqlardan ibarət 41 sərnişin və 3 ekipaj üzvü, ümumilikdə 44 nəfər həlak olmuşdur. 44 nəfərin həlak olunması erməni faşist ideologiyasını bir daha üzə çıxarır. Xatırladaq ki, hadisədən iki ay əvvəl - 20 noyabr 1991-ci ildə ermənilərin Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında "Mİ-8" helikopterini atəşə tutması nəticəsində Azərbaycanın bir çox dövlət xadimləri və jurnalistlər həlak olmuşdular. Həlak olanların arasında dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev və başqaları var idi. Ümumilikdə qəza nəticəsində 22 nəfər həlak olmuşdu.

Göründüyü kimi, real həyatda terror aktlarından daha çox günahsız kütlə, dövlət adamları ziyan çəkir. Müasir dünyanın toqquşduğu əsas və təhlükəli problemlərdən olan terrorizm daha çox siyasi, etnik, dini və s. zəminində yaranır. Əlbəttə ki, bu siyasi, iqtisadi və mənəvi ziyanla nəticələnir və hər bir dövlət, hər bir insan bunun qurbanına çevrilə bilər. Azərbaycanın tarixində belə hadisələrin sayı kifayət qədərdir. 20 sentyabr 1991-ci ildə Xankəndi şəhərində Şuşa-Ağdam yolunu birləşdirən Xəlfəliçay üzərindəki körpü partladılmasında cinayəti törətmiş Artur Amramyan həbs olunmuş və 15 il müddətində azadlıqdan məhrum olmuşdur. Bu, o illərdə Xankəndidə törədilmiş ilk və son terror deyildi. Qısa bir şəkildə son xronologiyaya nəzər salsaq görərək ki, şəhərdə terror, sui-qəsd və hücum aktları kifayət qədər törədilib.

### QARABAĞ MÜNAQİŞƏSİNİN İLK QURBANLARI

1988-ci ildə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndində ermənilər Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başlanılıb. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olunub. Bundan bir həftə sonra, 20 fevralda Dağlıq Qarabağ Ali Sovetindəki erməni deputatlar qanunsuz olaraq vilayətin Azərbaycanın tərkibindən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırıblar. Bu, Qarabağın azərbaycanlı icmasının haqlı narazılığına səbəb olub. Bundan sonra sovet rəhbərliyi vəziyyəti stabilləşdirmək üçün Xankəndinə Daxili Qoşunların batalyonunu göndərib. Həmin aylardan etibarən ermənilərin azərbaycanlılara qarşı terror hərəkatı başlanıb. Xankəndi erməniləri Şuşaya gələn su kəmərini zəhərləməyə cəhd ediblər. 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında praktika keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlanıb. 2 gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bunun qisasını almaq üçün Xankəndinə yürüş edib və onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsilib. Baş verən qarşıdurmada iki azərbaycanlı qətlə yetirilib və çoxlu sayda insan isə yaralanıb. Bu gənclər sonradan illərlə davam edəcək Qarabağ münaqişəsinin ilk qurbanları olublar. Bu, bir daha ermənilərin terrorçu olduğunu sübut edən dəlillərdir. Belə ki, 1988-ci ilin yayında Xankəndi Uşaq Xəstəxanasında həkim-rentgenoloq işləyən əslən ağdamlı şəxs ermənilər tərəfindən xəstəxananın həyətində döyülərək, qətlə yetirilib. 28 iyun 1989-cu il tarixində ermənilər tərəfindən Badara qəsəbəsindən Meşəliyə gedən şosse yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanıb. 1990-cı il may ayında Bakı-Xankəndi qatarı və Xankəndi-Ağdam avtobusu partladılıb. 1990-cı ilin iyununda xankəndili Əşrəf və Ələmşah adlı iki qardaş 336-cı moto-atıcı alayın qarşısında diridiri yandırılıb. 5 sentyabr 1991-ci ildə Xankəndidəki radio-televiziya stansiyası partladılıb. Bu günə kimi bu hadisədə əli olanların adları məlum deyil. 1991-ci il yanvarın 5-də Kərkicahan ərazisinə ermənilər tərəfindən hücumlar olunur. Beləcə, qəsəbə 3 nəfəri itirir. Lakin erməni tərəfindən də, çoxlu itkilər olur. 1991-ci il 9 yanvar tarixində Baqmanyan Akop Qavruşoviç və Antonyan Artuşa Qriqoroviç tərəfindən DQMV-nin Daxili İşlər İdarəsinin rəisi general mayor V.Kovalyovun həyatına sui-qəsd edilmişdir. Buna səbəb kimi onun azərbaycanlıları müdafiə etməsi və sui-qəsdin yuxarı dairələrdən sifariş olunması göstərilmişdir. 1989-cu ilin oktyabr ayında evinə qayıdan iki nəfər Kərkicahan sakini güllələnmişdir. 1991-ci il fevralın 4-də ermənilər azərbaycanlılar yaşayan bir neçə binanı partladır, güllələyiblər. 1991-ci ilin yayında Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN Daxili Qoşunlar mayoru L.Xomiç qətlə yetirilmişdir. 24 fevral 1991-ci ildə Şuşadan Ağdam rayonuna gedən "PAZ-3205" dövlət nömrə nişanlı avtobus şəhər ərazisində partladılmış, nəticədə 7 nəfər vəfat etmişdir. Həmçinin ermənilər bu zaman ərzində oğurluq və talançılıq işlərinə də, əl atıblar. İllər uzunu ölkəmizin demək olar ki, hər bir yerində ermənilər tərəfindən törədilən bu və ya digər faciələri, qətliamlar yaşamışıq. Vurğulamaq yerinə düşər ki, sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi 1923-cü il iyulun 7-də "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekret verib və həmin dekretlə Xankəndi vilayətin mərkəzi elan olunub. 1923-cü ilin sentyabrında şəhər Stepan Şaumyanın adı ilə "Stepanakert" adlandırılıb. Bu, erməni özbaşınalığı, erməni saxtakarlığıdır. Tarixi ədalət hər zaman bərpa olunur. 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə şəhərin əvvəlki, "Xankəndi" adı bərpa edilib.

### TERROR AKTLARI VƏ MÜHARİBƏ CİNAYƏTLƏRİ

Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayıhesabı yoxdur. Mənfur qonşularımız bizə qarşı məkrli, çirkin niyyətlərini həyata keçirmişdilər. Hələ sovet dövründə yaşadığımız illərdə 8 sentyabr 1984-ci ildə Bakıda 106 saylı sərnişin avtobusunun erməni terrorçusu Henrix Vartanov tərəfindən partladılması zamanı iki uşaq anası olan Surxalizadə Fatma həlak olmuş, üç nəfər yaralanmışdır. Hadisə o vaxt SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən terror aktı kimi deyil, onunla Vartanovla müdiriyyət arasında olan narazılıq kimi qiymətləndirildi. Hadisənin təşkilatçısı olan Henrix Vartanov psixi xəstə kimi qəbul edilərək həbsdən azad ediləərək məcburi psixi müalicəyə göndərildi. Əlbəttə ki, bu ermənipərəst qüvvələrin himayəçilərinin əməlləri idi. 16 sentyabr 1989-cu ildə erməni terrorçuları Tbilisi-Bakı reysi ilə işləyən sərnişin avtobusunu partlatmışlar. 5 adam həlak olmuş və 25 nəfər yaralanmışdır. 13 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, nəticədə 13 nəfər ağır yaralanmışdır. 24 mart 1990-cı ildə "Noraşen-Bakı" yolunun 364-ci km-də dəmir yolu partladılmış, nəticədə teplovoz və 3 vaqon partladılmış, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür. Bu siyahını artırmaq üçün əsas dəlillər çoxdur. Hər bir terror aktında insan ölümü diqqəti çəkir. Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. 44 günlük Vətən müharibəsində də xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Müharibə getməyən ərazilərimizdə Gəncədə, Mingəçevirdə, Bərdədə yaşından asılı olmayaraq uşaq da, gənc də, qoca da bu terrorların acı nəticəsini yaşamış oldu.

### ERMƏNİ VANDALİZMİNİN AZYAŞLI QURBANLARI

30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük müharibədə Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasında xəbər vermiş oldu. Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə alması dünyanın, dünya KİV-lərinin döyüş meydanında iştirak etdiyi bir zamanda baş verirdi. Bütün olayları dəqiqliklə işıqlandıran KİV-lər Azərbaycanın haqlı mövqeyinə göz yuma bilmirdilər. Ermənistan tərəfindən həyata keçirilən terror aktları və müharibə cinayətlərinə etinasızlıq göstərilmədi. Vicdanla öz vəzifə borclarını yerinə yetirənlər Azərbaycanın təmas xəttindən uzaqda yerləşən şəhərlərini raket atəşə tutmasını, nəticədə çox sayda mülki şəxsin həyatının itirməsinin şahidinə çevrildilər. Bu tarixdir: erməninin terrorçuluq əməllərinin izi və tarixi. Yatmış insanlara qarşı iyirmi birinci yüzillikdə törədilən terror insanlıq əleyhinə olan cinayətdir. Lənnətlənmiş erməni əməllərinin izi Azərbaycan tarixinin hər səhifəsindən görünür. Bunu silmək, yox etmək qeyri-mümkündür. Gəncə şəhərini raket atəşinə tutması nəticəsində Şahnəzərovlar ailəsinin yaşadığı faciə yaddan çıxarmı? Dağıntılar altından ailənin yalnız bir üzvü - 2017-ci il təvəllüdlü Xədicə Şahnəzərova sağ çıxarıldı. Azyaşlı qızın atası Röyal, anası Züleyxa və yaşyarımlıq bacısı Məryəm isə erməni terrorunun qurbanları oldu. Dünya, insanlıq bu faciəni necə qəbul edə bilər? Azyaşlıya qıyan, onu yetim qoyan, insanları şikəst, kor edən, əlil edən, bir ailənin faciəsini qatili olan erməni. O erməni ki, 2017-ci ilin iyul ayının 4-də Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutdu.

1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, Vətən müharibəsinə qədər 30-dan artıq azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozub.

***Nəzakət ƏLƏDDİNQIZI***

*Uzun illər İranın şovinist molla rejiminin Cənubi Azərbaycana ögey münasibəti ürəyimizdə daim qövr edən sağalmaz bir yara açıb. Bəli, Cənub dərdi azərbaycanlıların ağır dərdi, ümumi kədəri və nisgilidir. Son zamanlar şovinist İranın mollakratiya rejiminin biganəliyi və qəsdi nəticəsində gündən-günə quruyan Urmiya gölünün faciəli durumu dərdimizin üstünə bir dərd də gətirib...*

# İranın fars-molla rejiminin qəsdi: Urmiya gölü sürətlə quruyur

Qoca Şərqin ən gözəl incilərindən Urmiya gölünün sahilləri Təb-




riz, Urmiya, Xoy, Marağa, Qoşaçay, Soyuqbulaq, Xana, Salmas, Uşnu və Sulduz kimi bölgələrini əhatə etməklə Cənubi Azərbaycan torpaqlarının beşdə birini təşkil edir. Urmiya gölü zəngin mineral ehtiyatlara sahibdir. Burada 5 milyard ton potas, 60 milyon ton potasium sulfat, 240 milyon ton maqnezium, 28 ton bromid, 250 litium olduğu ehtimal edilir. Urmiya gölü öz gözəl təbiəti və zığının müalicəvi özəlliyi ilə bir çox turistlərin bölgəyə gəlməsinə nədən olur. Sərnişin və yükdaşıma üçün gölün 6 limanı (”Gülmənxana”, ”Şərəfxana”, ”Heydərabad”, ”Rəhmanlı”, ”Xan-



taxtı”, ”Şahi”) vardır.

Füsunkar Urmiya gölü və onun çevrəsində 2014-2016-cı il biomüxtəlifliyin son siyahıları əsasən (adalarda yerləşən çayları ilə birlikdə) 62 növ bakteriya, 20 növ fitoplankton, 24 növ məməli heyvan, 41 növ sürünən, 212 növ quş, 7 növ suda-quruda yaşayan, 5 növ molyusk və 26 növ balıq yaşayırdı. Bu canlıların varlığı və çeşidliyi Urmiya gölünün UNESCO tərəfindən biosfer qoruğu elan edilməsinə və Ramsar konvensiyasına salınmasına səbəb olmuşdu.

Çox təəssüf ki, əsrarəngiz gözəlliyi ilə seçilən, Cənubi Azərbaycanımız üçün böyük mənəvi mənası olan, yaşı min illərlə ölçülən Urmiya gölü bu gün özünün həyəcanlı günlərini yaşayır. Belə ki, gündən- günə qurumaqda olan bu gölün dərdinə çarə qılmaq İranın hakimiyyət dairələrinin heç yadına da düşmür. Halbuki, gölün qurumasının qarşısını almaq üçün əsaslı tədbirlər görmək olar. Çünki Urmiya gölünün qurumasına təbii amillərlə yanaşı, ekstensiv əkinçilik,



sudan səmərəli və çağdaş texnologiyalardan yararlanmadan istifadə, əkin çeşidlərinin düzgün seçilməməsi, gölə axan çaylar üzərində nizamsız və fəsadları nəzərə alınmadan çoxlu sayda su anbarlarının inşası və sair kimi süni amillər də təsir edir. Birmənalı demək olar ki, bu süni amilləri aradan qaldırmaq istəməyən İranın fars-molla rejimi mövcud ekoloji terroru dəstəkləyir.

Böyük həyəcan hissi ilə demək lazımdır ki, Urmiya gölünün ətrafında yerləşən soda zavodu bölgə sakinləri üçün mühüm təhlükə mənbəyidir. Müəssisə ətraf mühiti zəhərləyir və gölü çirkləndirir. Digər təhlükə göldə duzluluğun artması ilə artemiyalarla qidalanan qızıl qazların dimdiklərində kilidin əmələ gəlməsi ilə bu canlıların aclıq və susuzluqdan tələf olmasıdır. Bu göldə yaşamaqda olan artemiyaların sayı təbii halda 1 litrdə 4000-nə qədər ola bildiyi halda, hazırda 1 litrdə 1 ədədə enmişdir.

Gölün suyu ortalama olaraq il ərzində 1,3 milyard kubmetr azalır. Cənubi Azərbaycandan olan ekoloqlar həyəcan təbili çalaraq bildirirlər ki, əgər gölün qurumasının qabağı alınmasa bu gedişlə o bir neçə ilə qədər tamamilə quruyacaq. Gölün yerində bataqlaşmış sahələr, şoranlıqlar meydana gələcək. Urmiya şəhər rəhbərliyinin sözlərinə görə əgər Urmiya gölü tamamən quruyarsa onun yerində 10 milyard ton duz qalacaqdır..Bu isə bölgədə yaşayan 14 milyon insanın ərazini tərk etməsinə səbəb olacaqdır.

Bundan başqa, gölün üzərinə salınmış körpü də bu su hövzəsinə böyük zərər vermişdir. Belə ki, körpü salınarkən yaxınlıqda yerləşən




Zənbil dağı dağıdılaraq gölə tökülmüşdür. Bu körpünün tikintisi ilə göl cənub və şimal olmaqla iki yerə bölünmüşdür. Bununla da şimal ilə cənub arasında axın əlaqəsi zəifləyib.

Tədqiqatçı-alimlərin fikrincə, gölün qurumaması üçün ildə ən azı 6000.000 kubmetr su lazımdır. Bu qədər su illərdir Urmiya gölünə tökülmür. Gölün səviyyəsi 10 ildə 6 metr aşağı düşmüşdür. Səviyyənin bu qədər azalması gölün sahəsinin təqribi 20 faiz azalmasına səbəb olub. Bunun nəticəsində gölün 9 iri adasından 5-i quru ilə birləşib. Acınacaqlı haldır ki, artıq gölün xüsusilə cənub hissəsində sahəsi 120000 hektar olan şoranlıq meydana gəlib. Hazırda Urmiya gölünün suyunun duzluluğu 1 litrdə 300 qrama çatır. Gölün sahillərində qalaqlanan duzlaqlar əsas təhlükə sayılır. 1998-ci ildən quruyan gölün səviyyəsi 70 faiz azalıb.

Yeri gəlmişkən, qurumamışdan əvvəl Urmiya gölünün uzunluğu 140, eni 55 kilometr, ümumi sahəsi 5822 kvadratkilometr, ən dərin yeri isə 16 metr olub. Gölə ümumilikdə 13 iri və çoxlu sayda kiçik çay tökülürdü. Həmin su hövzəsi çox zəngin flora və faunası ilə tanınırdı. Burada nadir heyvanlar və bitkilər var idi. Göl duzluluğuna görə dünyada üçüncü yeri tutur. Yaxın və Orta Şərqin bu təbiət incisində su səviyyəsinin azalması 1984-cü ildən müşahidə edilməyə başlayıb.



Hələ o zaman Cənubi Azərbaycandan olan milli fəallar, mütəxəssislər, sakinlər həyəcan təbili çalaraq İran hökumətinə, eləcə BMT-yə müraciət etsələrdə heç bir nəticə əldə olunmayıb.

Bir neçə il bundan əvvəl ”Amerikanın səsi”nin saytında Urmiya gölü ilə bağlı keçirilən canlı forumda İllinoys Universitetinin Kənd Təsərrüfatı üzrə professoru Məhəmməd Kanduri bildirmişdi ki, dünyanın nüfuzlu alimləri tərəfindən aparılan tədqiqatlara görə bu göldə 27 il əvvələ qədər quruma baş verməyib: ”Keçən min illər gölün suyu arabir azalıb çoxalsa da, keçmişdə gölün quruması barədə heç bir dəlil yoxdur”.

Mütəxəssislərə görə göl quruduğu təqdirdə yerdə qalan duz insanlara, ətrafdakı heyvanlara və bitkilərə böyük zərərlər verəcək, duz bölgənin bütün həyat tərzinə mənfi təsir göstərəcək və burada yaşamaq olduqca çətin, bəlkə də imkansız olacaq. Urmiyaya axan çaylar üzərindəki su bəndləri açılmasa və gölün qurumasının qarşısı alınmasa, bu, həmin çaylardan istifadə edən ərazilərə və bölgədə kənd təsərrüfatına mənfi təsir edəcək. Göl qurusa orada azından 6 milyard kubmetr duz qalacaq ki, onun ziyanını canlılar çəkəcək. Ətrafdakı ərazilər təkcə səhralaşmayacaq, eyni zamanda, duzların bir hissəsi ”turşu yağışı” adlandırılan zərərli maddələri ehtiva edən yağışlara səbəb olacaq. Ona görə də gölə axan çayların qabağı açılmalıdır. Yalnız bu yolla problemi həll etmək mümkündür. Alimlərin fikrincə, gölün xilası Qərbi Azərbaycan vilayətinin ərazisindəki çayların və digər torpaqların da xilası deməkdir.

Təəssüf ki, bu gün İranın şovinist molla rejimi Urmiya gölünün qurumasının qarşısını almaq üçün lazımi addımlar atmır. Bütün bunlar öz növbəsində Cənubi Azərbaycanın böyük bir hissəsində ekoloji fəlakətin yaranmasına səbəb olub. Yəni, İrandakı mollakratiya bilərəkdən Güney Azərbaycanda ekoloji terror törədib.

Cənubdakı soydaşlarımızın, milli fəalların fikrincə, gölün qəsdən qurudulması azərbaycanlıları yaşadıqları həmin ərazilərdən İranın mərkəzi şəhərlərinə köçürmək və onları assimilyasiya etmək məqsədi daşıyır. Təbii ki, Urmiya gölü cənublu soydaşlarımız üçün xüsusi məna kəsb etdiyi üçün İranda zaman-zaman gölün qurudulmasına qarşı etiraz mitinqləri keçiriblər. 2011-ci ildə keçirilən etiraz aksiyalarında da ən çox səslənilən şüar ”Urmu gölü can verir, məclis (parlament) onun qətlinə fərman verir” idi.

Təbii ki, bu gün Urmiya gölünün faciəli vəziyyəti və onun ağır nəticələri ilə bağlı həyəcansız danışmamaq olmur. Bu mənada İranın irqçi rejimi nəhayət, ekoloji terroru dəstəkləməkdən vaz keçməli, təcili olaraq Urmiya gölünün dərdinə əlac etməlidir. Əks təqdirdə bu, həmin bölgədə daha faciəli olaylara yol aça bilər

***Zahid Rza***

# Ermənistan vaxtını fövtə verir...

***Ermənistanın baş naziri Nikol Paşinyanın hökumətin iclasında Azərbaycana qarşı əsassız ittihamlar irəli sürməsi və əslində, ermənilərə xas olan nağıllara söykənərək ağlına gələni danışması, o cümlədən XİN başçısı Ararat Mirzoyanın Avropa Parlamentinin komitəsinin toplantısında sərsəmləməsi, ya da dolayısı ilə müharibədən dəm vurması mövcud vəziyyətin daha gərginləşdirilməsindən xəbər verir.***







*Heç bir missiya və başqa bu kimi cəhdlər Azərbaycanın haqlı tələbləri, irəli sürdüyü şərtləri qarşısında dayana bilməyəcək!*

Beləliklə, Qərbin Cənubi Qafqaza yerləşmək cəhdləri ortadadır və bu baxımdan hadisələr bir-birini tez-tez əvəzləyir, intensivlik müşahidə olunur. O cümlədən, Azərbaycan özünün etibarlı partnyorları ilə münbit fəaliyyətlərə imza atdığı bir zamanda Ermənistan əlində olan son şansını belə doğru-dürüst istifadə edə bilmir. Hətta belə desək, bir müddət əvvəl Davosda keçirilən növbəti Forumda Ermənistan rəhbərliyinin iştirak etməməsi mövcud siyasi-iqtisadi və s. panoramda bu ölkənin, ümumiyyətlə, görünməməsi ilə nəticəsini tapır.

### Sonradan "məni tələyə saldılar" tipli ağlayıb-sızlama siyasətini həyata keçirəndə çox gec olacaq!

Görünür, Nikol Paşinyan hökumətini Fransanın və Avropa Parlamentinin gərəksiz qətnamələri, bəyanatları da qane edir. Misal üçün, Fransanın daxili işlər naziri Jerald Darmanenin Fransa ermənilərinin koordinasiya şurasının (CCAF) ənənəvi naharı zamanı həyasız və ölçülüb-biçilməmiş "Ermənistanın düşmənləri Fransanın düşmənləridir" bəyanatı da bu xüsusdadır. Sadəcə, bu kimi axmaq xüsusda, başqa heç nə...

Amma bu da rəsmi İrəvanın öz işidir. Necə deyərlər, sonradan "məni tələyə saldılar" tipli ağlayıb-sızlama siyasətini həyata keçirəndə çox gec olacaq!

Başqa tərəfdən isə Avropa İttifaqı missiyasının bəzi şübhəli şəxslərinin Ermənistana göndərilməsi faktı da özündə bir sıra suallar doğurur. Daha dəqiq desək, bu missiyanın üzvləri arasında vaxtilə kəşfiyyat xidmətlərində fəaliyyət göstərmiş şəxslərdən başlayaraq sabiq hərbçilərin də olması barədə məlumatlar mövcuddur.

### Erməni politoloqu Hayk Naapetyan Aİ missiyası haqqında: "Onların qarşısına qoyulan tələb silahlı toqquşmaların qarşısını almaq deyil, onlar kəşfiyyat işlərini aparacaqlar və lazım olanda silahlı qarşıdurmaları Yuqaslaviyada, Kosovada olduğu kimi gərginləşdirəcəklər"

Maraqlıdır ki, bunu elə erməni siyasi və hərbi şərhçiləri də etiraf edirlər. Məsələn, erməni hərbi eksperti Hayk Naapetyan KİV-ə açıqlamasında bildirib ki, Aİ müşahidəçiləri Ermənistana kəşfiyyat işləri aparmaq üçün gəlirlər. SİTAT: "Onların qarşısına qoyulan tələb silahlı toqquşmaların qarşısını almaq deyil, onlar kəşfiyyat işlərini aparacaqlar və lazım olanda silahlı qarşıdurmaları Yuqaslaviyada, Kosovada olduğu kimi gərginləşdirəcəklər. Əgər hazırda Ermənistana müşahidəçilər göndərən Aİ-yə üzv ölkələr bu qədər cana yanandırlarsa 44 günlük müharibəni dayandırardılar. Onlar heç vaxt Azərbaycanı və Türkiyəni tənqid etməyəcəklər, çünki onlarla sıx əməkdaşlıq edirlər".

O da diqqətçəkəndir ki, adıçəkilən erməni ekspertinə görə, hətta silahlı torruşmaların olacağı halda missiyada olanlar uzağı bəyanatlar verib, sadəlövh insanları beyinlərini yumaqla kifayətlənəcəklər. Naapetyan İran faktorunu da istisna etməyib. SİTAT: "Onlar İrana görə gəlirlər. Ona görə ki, Qərb İrana qarşı hərbi yürüşə hazırlaşır. Bundan əlavə, burada kəşfiyyat işləri də aparılacaq".

Ancaq erməni ekspert rəyinin hansı məna kəsb etməsindən asılı olmayaraq və eyni zamanda, bütün bunlara rəğmən, Ermənistan, sadəcə, vaxtını fövtə verir və əslində, heç bir məqsədli missiyalar, ya da cəhdlər rəsmi Bakının haqlı tələbləri, eləcə də şərtləri qarşısında dayana biləcək gücdə olmayacaq!

### Rusiyalı politoloq Yevgeni Mixaylov Aİ missiyası barədə: "Ermənistan eyni anda iki kətildə oturmağa cəhd edir"

İndi isə gələk Rusiyanın tanınmış politoloqu Yevgeni Mixaylovun analizinə. Kreml dairələrinə yaxınlığı ilə seçilən politoloq hesab edir ki, Ermənistan bir anda iki kətildə oturmağa cəhd göstərir. Onun sözlərinə görə, İrəvanın delimitasiya və demarkasiya edilməmiş sərhədlərində iki illik müddətə Aİ-nin müşahidəçilər missiyasını yerləşdirmək istəyi yalnız anti-Azərbaycan deyil, həm də anti-Rusiya addımıdır. SİTAT: "Bildiyim qədər Bakı 2 aylıq missiyaya qarşı etiraz etmirdi, ancaq həmin missiyanı daha böyük sayda və 2 illiyinə göndərmək qəbuledilməzdir".

Mixaylov hesab edir ki, Azərbaycan bu oyunların arxasında dəfələrlə Aİ-də anti-Azərbaycan qətnamələrinin qəbul olunması üçün canfəşanlıq göstərən ermənipərəst Fransanın dayandığını çox gözəl bilir. SİTAT: "Aİ missiyası Rusiyanın da maraqları üçün fövqəladə dərəcədə təhlükəlidir. Mənim nəzərimcə aydındır ki, İrəvan nəyə doğru getdiyini dərk edir və buna müvafiq olaraq daha əvvəl Moskva ilə əldə olunmuş razılaşmalara qarşı açıq şəkildə çıxış etdiyini də anlayır. Yəni aşkar şəkildə xəyanət edir.

### Rusiyalı politoloq: "İrəvan Moskvaya qarşı xainliyə getdi"

Beləliklə, İrəvanın eyni anda iki kətildə oturmaq cəhdləri barədə danışan rusiyalı politoloq bildirib ki, Ermənistan həmin kətillərin hansının necə dayanıqlı olmasından sonra hansı addımlar atacağı barədə qərara gələcək. SİTAT: "Axı aşkar olaraq aydındır ki, İrəvan Moskvaya qarşı xainliyə getdi, hansı ki, Rusiya hazırda Ukraynada hərbi əməliyyatlarını davam etdirir. Və belə bir məqamda İrəvan öz dövlətçiliyini təhlükə altına atmaqla çox təhlükəli oyuna daxil olub", politoloq fikirlərini yekunlaşdırıb.

Nəticədə isə bütün kartlar ortadadır və açıq vəziyyətdədir. Artıq İrəvan öz seçimini edib və belə görünür ki, Nikol Paşinyan hakimiyyəti, həqiqətən də, ölkəni ağır və çıxılmaz vəziyyətə, hətta xəritədən silinmək vəziyyətinə doğru sürükləyir. Azərbaycanın isə verdiyi vaxtların sonuncu da bitmək üzrədir. Yəni Rusiya Ermənistanla öz haqq-hesabını necə çəkəcəyini özü bilər, amma Azərbaycanın haqq-hesabı, əlbəttə ki, İrəvana çox baha başa gələcək.

***Rövşən RƏSULOV***


## ELAN

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir

**İxtisas fortepiano kafedrası**
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Nəfəs və zərb alətləri kafedrası**
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Kamera ansamblı kafedrası**
Dosent
Baş müəllim

**Fortepiano, orqan, klavesin kafedrası**
Baş müəllim
Baş müəllim

**Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır. Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər. Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.**

* * *

**YAP Xətai rayon təşkilatı tərəfindən Fərzullayeva Sevinc Rəsul qızına 2003-cü ildə verilmiş No 287982 saylı vəsiqə itdiyi üçün etibarsız sayılır**

# Dmitri Solonnikov: “Ermənistana göndərilən əslində NATO-nun missiyasıdır”

*Tanınmış rusiyalı politoloq, Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Moskva-Bakıya müsahibəsində Aİ-nin Ermənistandakı uzunmüddətli genişləndirilmiş missiyasının məqsədinin Qərbin erməni-azərbaycanlı nizamlanması olmadığını, əksinə qarşıdurma yaratmaq olduğunu gizlətməməsi və bunun qarşısının necə alınmalı olduğu haqda danışıb. Müsahibəni oxucularımıza çatdırırıq.*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**- Aİ-nin Ermənistana qarşıdan gələn uzunmüddətli monitorinq missiyası böyük qlobal oyunun bir hissəsidirmi?**

- Bəli, əslində bu, NATO missiyasıdır. Missiyaya, Aİ Şurasının qərarına əsasən, Aİ üzvü olmayan dövlətlər də qoşula bilər. Çox güman ki, uniformalı insanlar mülki missiya adlanan yerdə gizlənəcəklər və onların Fransadan və ya Polşadan olmasının fərqi yoxdur, bu əslində NATO missiyası olacaq. Biz burada ilk növbədə Şimali Atlantika hərbi blokunun marağından danışacağıq.

Avropa İttifaqı yaxın gələcək üçün hədəfini açıqladı- bu, ən azı, Rusiyanın hərbi məğlubiyyətidir. Prinsipcə, bunu Avropanın müxtəlif nümayəndələri müntəzəm olaraq deyirlər və bu yaxınlarda Davos Forumunda da deyilib. ”Rusiya məğlub olmalıdır” və sonradan mənfi təsir göstərərək ona qarşı tədbirlər görülməli olduğu yayımlanır. Qərbin arzuladığı ssenari Rusiyanın digər dövlətlərin- Yaponiyanın, Polşanın, Norveçin, Finlandiyanın və s.-nin xeyrinə parçalanması, silahlı qüvvələri NATO-nun nəzarətinə götürməsidir. Heç kim gizlətmir ki, ABŞ və onun havadarları Rusiyanın gələcəyini bu cür görür və bunu reallığa çevirmək istəyirlər. Onu hər yerdə belə görürlər- Cənubi Qafqazda da, Uzaq Şərqdə də, Arktikada da. Bunlar bu məqsəd çalışırlar ki, Rusiyanı hər yerdən çıxarmaq lazımdır.

Artıq maskalar çıxarılıb. Onlar artıq bunu lazım görmürlər və bu paradiqmada fəaliyyət göstərəcəklər.

Yeri gəlmişkən, Aİ missiyasının ilkin müddətinin 2 il olması təsadüfi deyil. 2 ildən sonra Rusiya sülhməramlılarının Qarabağda qalma müddəti başa çatacaq. Rusiya, Azərbaycan, Türkiyə üçün (hansı ki, Moskva ilə indi münasibətləri yalnız möhkəmlənir, Qərb isə davamlı olaraq Ankaraya onun dünyasından olmadığını nümayiş etdirməyə çalışır) indi bütün hərəkət variantlarını nəzərdən keçirmək lazımdır, çünki Aİ, ABŞ dayanmayacaq və Cənubi Qafqazda hərəkət edəcək və Qafqaz getdikcə aqressivləşir.

**- Yəni Qərb tərəfdaşlarının Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı əvvəldən heç bir təsəvvürü yox idi? Biz Azərbaycan və Ermənistana münasibətlərin normallaşmasına kömək etmək istəyirik - bu, son məqsədi gizlətməkdirmi?**

- Bəli, onların problemi nizamlama vəzifəsi yoxdur, öz məqsədlərini həll etmək üçün Cənubi Qafqaza daxil olmaq vəzifəsi var- Rusiyanı sıxışdırmaq, Qafqazdakı problemləri guya həll etmək üçün uzunmüddətli Aİ nümayəndəliyi yaratmaq. Zaqafqaziyada hamı ABŞ, NATO, Avropa İttifaqı ilə razılaşmalıdır, kim razılaşmasa, zorla ”razılaşdırılacaq”.

- Azərbaycan isə, görünür, onlara mane olur, çünki Bakının arxasından missiyanı razılaşdırıblar... və vəziyyəti kritikləşdirirlər...

- Bəli, təbii ki, Azərbaycan onlara mane olur, çünki o, müstəqil siyasət yürüdür və Vaşinqton, Brüssel, London və digər qüvvələrin diktəsinə məruz qalmaq istəmir. Azərbaycanın liberal Avro-Atlantik dəyərlərin mənafeyinə deyil, öz milli maraqlara uyğun həyata keçirilən özünü təmin edən siyasəti var. Müstəqil Azərbaycan Qərb üçün qəbuledilməzdir.

**- Belə çıxır ki, Aİ indi bu cür davranmağa başlayıbsa, deməli, onlar Azərbaycanı özlərinə tabe etməyə çalışıblar və buna nail olmayıblar?**

- Qərb üçün dürüst siyasət aparmalı olduğu dövlətlər də var, ”oynamaq” istədiyi ölkələr də var ki, onları aldatmağı mümkün hesab edir. Elə xalqlar, ölkələr var ki, onlarla sivil davranmaq lazımdır, eləəri də var ki, mədəniyyətsiz davranmaq olar.

Azərbaycan üçün Aİ ilə əməkdaşlıqdan imtina etmək sərfəli deyil. Baxın, Rusiya Qərblə ən ağır münaqişə vəziyyətində belə, ”imkanlar pəncərəsi” - turizm, mədəniyyət, elm, idman sahəsində təmas üçün fürsət qoyur. Hər bir ölkənin praqmatik siyasəti olmalıdır. Əgər qarşılıqlı fəaliyyəti davam etdirmək faydalıdırsa, o zaman biz başa düşərək davam etməliyik ki, bu, bizim maraqlarımız çərçivəsində həyata keçirilir - indiki halda Rusiya və Azərbaycanın.

**- KTMT-nin mətbuat xidməti bəyan edib ki, təşkilatın Ermənistanla Azərbaycan arasındakı şərti sərhədə potensial missiyası məsələsi üzərində iş davam edir. Təsdiqləmə proseduru başa çatdıqdan sonra sənəd layihəsi təşkilatın nizamnamə orqanlarına baxılmaq üçün təqdim ediləcək. Ermənistan və Aİ-nin atdığı addımları nəzərə alsaq, İrəvanın belə bir missiya ilə razılaşması hələ də realdırmı?**

- Ermənistan çox güman ki, bir daha razılaşmayacaq. KTMT missiyasının göndərilməsi ilə bağlı təkliflər hələ sentyabrda hazır idi. Düşünürəm ki, təşkilat missiya göndərmək təklifini açıq qoyacaq və Ermənistan istəsə bundan istifadə edə bilər. Görəcəyik ki, İrəvan yenə özünü necə göstərəcək: siyasi şantaj və aldatmaqda davam edəcək, ya da razılaşacaq.

**- Böyük mətbuat konfransında Sergey Lavrov Ermənistanla Aİ arasında Azərbaycanın razılığı olmadan onun ərazisində yeni missiyanın yaradılması barədə razılığa gəlinməsi barədə tənqidi fikirlər səsləndirib və KTMT-nin öz missiyasını göndərməyə hazır olduğunu xatırladıb. Keçən il belə bir missiyanın göndərilməsi mövzusu qaldırılanda KTMT-nin növbəti sammitindən əvvəl Rusiya və Azərbaycan prezidentləri arasında danışıqlar aparılmışdı. Görünür, Bakının belə bir missiyaya qarşı olmayacağını deyirdilər... İrəvan KTMT missiyasına möcüzəli şəkildə razılaşsaydı, Azərbaycan necə reaksiya verərdi?**




- Ola bilsin ki, indiki şəraitdə Rusiyanın Ermənistanla bu cür danışıqlarda mövqeyini başa düşmək Azərbaycan üçün indiki vəziyyəti nəzərə alsaq, KTMT missiyası iki problemdən daha kiçiyi olardı. Hesab edirəm ki, Rusiya və Azərbaycan liderləri arasında KTMT-nin Azərbaycanla şərti sərhəddə missiyası ilə bağlı müzakirələr olub, bəlkə də bu, təşkilatın digər dövlətləri ilə müzakirələr olub. Bəzi hipotetik vəziyyətlər müzakirə edilib. Güman edirəm ki, Putinlə Əliyevin mövqeləri balanslaşdırılmışdı və qarşılıqlı anlaşma var idi. Yəni, Azərbaycan üçün KTMT missiyası şərti sərhəddə təəccüblü görünməzdi.

Rusiya sülhməramlıları Qarabağdadır. Əgər KTMT missiyası çərçivəsində Ermənistan və Azərbaycanın şərti sərhədində Belarus, Qazaxıstan və strukturun digər dövlətlərinin nümayəndələri yerləşdirilsəydi, bu, müsbət məna kəsb edərdi. Çünki bu ölkələrin Azərbaycanla əla münasibətləri var. Ermənistan məhz buna qarşıdır. Paşinyan açıq şəkildə bildirdi ki, belə bir missiyanın əleyhinədir, çünki bütün KTMT dövlətlərinin Bakı ilə yaxşı münasibətləri var. Ona görə də Ermənistan onları öz şərti sərhədində görmək istəmir, Azərbaycanla münasibətləri pis olanları, məsələn,Fransanı görmək istəyir.

**-Bütün bu vəziyyət nəyə gətirib çıxaracaq?**

- Ermənistanın özünü belə aparması vəziyyəti daha da pisləşdirəcək. Onun özü üçün, ilk növbədə. Təbii ki, Ermənistan suveren dövlətdir və istənilən ölkənin nümayəndələrini öz ərazisinə dəvət edə bilər. Bunun onun KTMT-yə üzvlüyü ilə necə əlaqəsi olduğu sual altındadır. Amma heç kim onun qarşısını ala bilməz. Amma bu Qərb qüvvələrinin heç bir sərhədi keçmək hüququ olmayacaq və Ermənistan nə qədər istəsə də, Laçın yolunun heç bir zonasına düşməyəcək. Ermənistanın bu gün etdiyi hər şey yalnız özü üçün vəziyyəti gərginləşdirəcək, bu, mövcud problemlərin həlli istiqamətində hərəkət deyil. Laçın yolu ətrafındakı problem Qarabağda separatçıların təbii sərvətlərinin talanmasının dayandırılması, yüklərin daşınmasına nəzarət etməklə həllini tapacaq.

**- Belə çıxır ki, Ermənistan Rusiyanın müttəfiqi olmaqla, Ermənistan-Azərbaycan nizamlanmasının arxasında pərdələnib gizlənsə də, indi Qərbin tərəfini tutub ayağa qalxır?**

- Ermənistanda hakimiyyətə gələn ilk vaxtdan onun Amerika QHT-lərinin adamı olduğu məlum idi. Paşinyan layihəsini amerikalı siyasi strateqlər ABŞ fondlarından pul hesabına hazırlayıb. Onun qərbyönlü siyasət həyata keçirəcəyi əvvəldən nəzərdə tutulurdu. Rusiya çox vaxt ən yaxşısına ümid edir. Ukraynanın Rusiya Federasiyası ilə münasibətləri pozmağa doğru getməsi faktı müstəqilliyinin bütün 30 ili ərzində məlumdur.

**- Seçimlərimiz nələrdir?**

- Hələlik Rusiyanın əsas vəzifəsi Ukraynadakı xüsusi hərbi əməliyyatın bütün vəzifələrini həll etməkdir. Bütün diqqət, təbii ki, buna yönəlib. Prezidentin bu istiqamətdə qarşıya qoyduğu bütün tapşırıqlar yerinə yetirildikdən sonra Rusiya digər sahələrdə də aktiv fəaliyyətə başlayacaq. İndi Cənubi Qafqazda vəziyyətin gərginləşməməsi vacibdir. Çünki Ermənistanla Azərbaycanın bütün şərti sərhədi boyunca yerləşən Qərb ”tərəfdaşları” Ermənistanın özü kimi təxribat törədəcəklər. Nə qədər irəli getsə, Aİ, NATO və Ermənistan arasında sıx münasibətlər məsələsi nə qədər çox olarsa, KTMT-yə üzv dövlətin statusunun saxlanıb-saxlanmamasının məqsədəuyğunluğu ortaya çıxacaq. Hələlik Rusiya üçün bütün bu vəziyyəti mümkün qədər yumşaltmaq vacibdir.

***Tərcümə - Elçin Bayramlı***

# Yol qəzaları: Piyada vurulmalarının qarşısını necə almaq olar?

***"Piyada vurmalarını geniş diapazonda yanaşmaq olar. Bunu adi vətəndaşlar öz gördüklərinə, maraq dairələrinə uyğun olaraq müəyyən mənada qiymətləndirirlər". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Texniki Universitetinin Avtomobil daşımaları və yol hərəkətinin təşkili kafedrasının dosenti, nəqliyyat eksperti Fərhad Eyyubov bildirib.***



Nəqliyyat eksperti qeyd edib ki, elmi əsaslarla məsələyə yanaşdıqda bu geniş bir şəkildə araşdırma tələb edir: "Yol nəqliyyat hadisələri 3 qrupa bölünür:

**1)** Baş vermə yerinə görə

**2)** Ağırlıq dərəcəsinə görə

**3)** Baş vermə mexanizminə görə

Piyada vurmaları baş vermə mexanizminə görə 10 göstəricidən biridir. Ümumilikdə yol nəqliyyat hadisələri əsasən 2 formada araşdırılır : Obyektiv; subyektiv.

Obyektiv amil dedikdə nəqliyyat vasitələrinin konstruktiv nasazlığı, yolların və müəyyən mühitin təsiridir. Misal olaraq yollarda işıqlandırılmanın zəif olması və s.

Subyektiv amillər isə sürücülərin və piyadaların səhvləri nəticəsində baş verən hadisələrdir. Yol nəqliyyat hadisələri bu qrupların hər iksinin səbəb və amilləri nəzərə alınmaqla analiz olunmalıdır. Harda baş verməsi, yolların işıqlandırılması, hadisənin necə baş verməsi və s.

Obyektiv amillər yol nəqliyyatı hadisəsi olan zaman araşdırılaraq aradan qaldırılmalıdır. Bəzi xarici ölkələrdə yol nəqliyyat hadisəsi zamanı ölüm faktı varsa həmin hadisə ocağının təhlükəsizlik problemləri ilə bağlı müəyyən tədbirlər görülür. Piyada vurulmaları bir çox amillər baxımından sinifləşdirilir. Burada uşaqların, gənclərin və yaşlı insanların yol keçmələri zamanı müəyyən faktorla nəzərə alınmalıdır. Ümumilikdə piyada keçidləri 3 qrupa bölünür:

**1)** Yer üstü piyada keçidləri. Bunlar nizamlanan və nizamlanmayan olmaqla 2 yerə bölünür.

**2)** Yer altı piyada keçidləri

**3)** Estakada keçidləri

Piyada keçidlərinin salınarkən bir sıra qaydalara riayət olunmalıdır. Hazırda bir sıra xarici ölkərlərdə ağıllı piyada keçidləri mövcuddur.

Bəzi yerlər var ki, həmin ərazilərdə şəhərin memarlıq xarakteri baxımından piyada keçidləri qoymaqda çətinliklər olur. İnsanlar bilməlidirlər ki, yol hərəkətinin təhlükəsizliyini özləri təmin etməlidirlər. Hazırda nəqliyyat vasitələrinin bir-birinə toqquşmasının qarşısını almaq məqsədi ilə tədbirlər görülür. Yəni qəzanı yüngülləşdirmək üçün variantlar düşünülür. Lakin piyadaların nəqliyyat vasitəsi ilə vurulması zamanı nəzəri cəhətdən araşdırılma aparılmır ki, burada zərər az olsun. Son zamanlar insanlar maşınlarına plonka vururlar. Bu da sürücülərin toranlıq zamanı görmə şəraitini çətinləşdirir faktların hər biri piyada vurulması zamanı özünü göstərir. Piyadalar ilk növbədə öz davranış qaydalarını bilməlidirlər. Bəzi insanlar yer altı keçidlərdən istifadə etməyib, pilləkanların onlarda narahatçılıq yaratdıqlarını qeyd edirlər. İnsanlar özlərini qoruma üçün bəhanə axtarmamalıdırlar. Piyada vurulmalarının 60-80 faizi piyadanın məsuliyyətsizliyindən baş verir.

Bu nöqtei nəzərdən insanlarda yol keçmək vərdişi yaranmalıdır. Bu kimi halların qarşısını almaq üçün ilkin növbədə maarifləndirici tədbirlər görülməlidir. Mən özüm bununla əlaqədar olaraq "piyada könüllüləri" adlı layihəsi irəli sürmüşdüm. Lakin bu məsələ geniş ictimaiyyət tərəfindən nəzərə alınmadı. Müəyyən bir vaxtlarda Daxili İşlər nazirliyinin xüsusi bölmələri Dövlət Yol Polisinə kömək etmək üçün fəaliyyət göstərdilər. Lakin indi fikrimcə, xüsusi ilə orta məktəblərdə və ali təhsil ocaqlarında bu hal davam etdirilməldir. Onlarda piyada könüllüləri adı altında maarifləndirmə tədbirləri həyata keçirdə bilərlər. Unutmaq olmaz ki, hər bir insanın təhlükəsizliyi onun özünün, ictimaiyyətin və ölkəmizin milli təhlükəsizlik konsepsiyasıdır".

***Banuçiçək Hüseynli***



# Vəhşi heyvanların insanlara hücumlarının qarşısı necə alınmalıdır?

ARAŞDIRMA

***Dəfələrlə vəhşi heyvanların yaşayış ərazilərinə daxil olması faktları qeydə alınıb. Gözlənilməz hücumlar nəticəsində "çağırılmamış qonaqlar"ın nəinki iri və xırdabuynuzlu heyvanlara, hətta insanlara belə hücumlar barədə məlumatlar mövcuddur. Vəhşi heyvanların öldürülməsi və ya yaralanması özünü müdafiə etmədiyi halda qanuna ziddir. Bu heyvanların "Qırmızı Kitab" da yer alan növlərə xüsusi diqqət yetirilir.***

Vəhşi heyvanların əsas yaşayış yerləri dağlar və meşələrdir. Bir çox vəhşi heyvanlarla, xüsusən də caynaqlılar və yırtıcılarla qarşılaşdıqda ehtiyatlı olmaq lazımdır. Miqrasiya zamanı və ya cütləşmə mövsümündə onlar daha aqressivləşir və insanlar üçün təhlükə kəskin şəkildə artır. Cütləşmə dövründə toplum halında olurlar. Hündür otlar və sıx kollarla örtülmüş ərazilərdən gün ərzində vəhşi heyvanın əsas yaşayış yerləridir.

Görünüşündən və davranışından asılı olmayaraq vəhşi heyvanlarla üzləşmə gözlənilməz hadislərlə nəticələnə bilir. Ancaq onlar çox vaxt izdihamlı yerlərdən və yüksək səslərdən qaçır.

Azərbaycan Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən verilən məlumata görə, vəhşi heyvanlar dişləmə, cırmaqlama yolu ilə, habelə tüpürcək vasitəsilə insanı ölümlə nəticələnən yoluxucu xəstəliyə - quduzluğa da yoluxdururlar. İnsanda quduzluq xəstəliyinin əlamətləri bu infeksiyaya yoluxduqdan 2 gündən 3 aya qədər, nadir hallarda isə bir ilə müşahidə edilə bilər. Quduzluq xəstəliyinin hidrofobiya və aerofobiya (sudan və havadan qorxma əlamətləri), psixo-nevrotik, udqunma aktının pozulması, hallusinasiya, yüksək hərarət, dişlənmiş yerdə ağrının olması, hipersalivasiya kimi əlamətləri var. Buna görə də hər hansı bir heyvan tərəfindən dişləmə, tüpürcəkləmə və ya cırmaqlanma baş veribsə, dərhal həkimə müraciət etmək və antirabik vaksini vaxtında vurdurmaq lazımdır.

Vəhşi heyvanlar yaşayış məntəqəsinə və ya mal-qaraya hücum edirsə, əhalinin təhlükəsizliyinə, kənd təsərrüfatı heyvanlarına ciddi təhdid yaradırsa, bu zaman vətəndaş, özünü və təsərrüfatını qorumaq hüququna malikdir.

Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəsmisi Bəhruz Məhəmmədov: "Canavar və çaqqalların kəndlərə, insanlara hücumları ilə bağlı nazirliyə və onun yerli qurumuna rəsmi müraciət daxil olduqda Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin mütəxəssisləri və ovçulardan ibarət işçi qruplar yaradılır. Qruplar insanlara təhlükə yaradan heyvanların ərazidən uzaqlaşdırılması üçün hürküdücü vasitələr tətbiq edir, yırtıcıların sayının tənzimlənməsini diqqətdə saxlayır, zərurət yarandığı təqdirdə müvafiq tədbirlər görür.

Qeyd edim ki, vəhşi heyvanlar mal-qaraya və insana hücum edərsə, həmin şəxs özünümüdafiə məqsədilə heyvanı vura bilər. Belə halda həmin şəxsə qanun pozuntusu şamil edilmir və bu zaman o, istənilən məsuliyyətdən azaddır. Əgər vəhşi heyvan təqib edilərək vurulursa, ovlanırsa, bu, artıq müvafiq məsuliyyət yaradır".

***Havar Şəfiyeva***

# "Pəhriz saxlamağa psixologiyamız hazır olmalıdır"



***"Pəhriz saxlamaq böyük bir iradə tələb edir. Əgər həqiqətən pəhriz saxlamağa ehtiyac varsa, bu zaman insan iradəli olur". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova bildirib.***

Onun sözlərinə görə, pəhriz saxlayan şəxs bu prosesi istəyərək həyata keçirmirsə, nəticəyə çatmaq çətin olacaq: "Un məmulatları, şirniyyatlara aludəçi olan insanlar var ki, onlar üçün pəhriz saxlamaq olduqca çətindir. Bu cür səbəblərə görə insanın ilk olaraq psixologiyası pəhriz saxlamağa hazır olmalıdır".

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**